Günəş Şərqdən doğur!

№ 195 (5716), 2022-ci il

Qiymәti 40 qәpik

# ŞƏRQ

Müstəqil İctimai-siyasi qəzet

www.sherg.az    26 oktyabr 2022-ci il (çərşənbə)



## Danışıqlar aparılır

Türkiyə insansız hərbi maşınını Azərbaycanda sınaqdan keçirmək niyyətindədir

**"HAVELSAN" şirkəti "Barkan" insansız hərbi maşını yaxın zamanda Azərbaycanda sınaqdan keçirmək niyyətindədir.**

Bu barədə APA-nın İstanbul müxbirinə açıqlamasında şirkətin İdarə Heyətinin üzvü, pilotsuz aparatlar üzrə layihə müdiri Veysel Ataoğlu deyib.

(Səh.5)

## Ekspert təklif verdi

Bağçalarla bağlı xaosu aradan qaldırmaq üçün Türkiyə modelinə keçmək lazımdır



**Sosial Tədqiqatlar Mərkəzinin rəhbəri Zahid Oruc təhsillə bağlı sos verib.**

O bildirib ki, ölkəmizdə 1825 uşaq bağçası var. Bu o deməkdir ki, ən yaxşı halda hər 4 uşaqdan yalnız biri bağça ilə təmin olunur.

(Səh.14)




## Zakir Həsənov Hulusi Akarla görüşüb

Azərbaycan və Türkiyənin müdafiə nazirləri regional təhlükəsizliyi müzakirə edib

**Türkiyədə işgüzar səfərdə olan Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov oktyabrın 25-də Türkiyə Respublikasının milli müdafiə naziri Hulusi Akarla görüşüb.**

Bu barədə "Şərq"ə Müdafiə Nazirliyindən bildirilib.

Görüşdə hərbi, hərbi-texniki, hərbitəhsil və digər sahələrdə əməkdaşlığın daha da inkişaf etdirilməsi, eləcə də regional təhlükəsizlik məsələlərinə dair ətraflı fikir mübadiləsi aparılıb.



# Bakının şərtləri

Liderlərin Moskva görüşündə qərarlar gözlənilir

"Putin Paşinyanı elə həddə cəzalandırmaq istəyir ki, baş nazir Qərbdən üz çevirsin"

**Prezident İlham Əliyevlə Ermənistanın Baş naziri Nikol Paşinyan arasında növbəti görüş gözlənilir. Bir ilə yaxındır ki, Avropa İttifaqının moderatorluğu ilə baş tutan danışıqlar raundunu yenidən Moskva əvəzləyir.**

(Səh.4)




## Ermənistan və Türkiyə sərhədlərin açılmasını müzakirə edəcək

**Tezliklə Ermənistan və Türkiyənin müvafiq qurumları arasında baş tutacaq görüşdə hava yolu ilə yükdaşımaların reallaşdırılması barədə razılaşmanın icrası müzakirə olunacaq.**

APA "Sputnik Armenia"ya istinadən xəbər verir ki, bu barədə Ermənistan XİN mətbuat katibi Vaan Unanyan deyib.

"Ermənistan və Türkiyənin müvafiq qurum nümayəndələrinin sərhəddə keçiriləcək görüşündə iyulda əldə olunmuş razılaşmaların icrası müzakirə ediləcək. Söhbət hava yolu ilə birbaşa yükdaşımaları və üçüncü ölkə vətəndaşları üçünü sərhədlərin açılmasından gedir", - XİN rəsmisi ələvə edib.

# Gediş haqqı 60 qəpik olacaq

Bakıda yeni marşrut xətti fəaliyyətə başlayır



**Oktyabrın 27-dən Bakıda gediş haqqı 60 qəpik olmaqla yeni E1 ekspres marşrut xətti fəaliyyətə başlayacaq.**

Bu barədə Bakı Nəqliyyat Agentliyindən (BNA) məlumat verilib.

Məlumata görə, yeni xətt üzrə avtobuslar metronun "Xalqlar Dostluğu" stansiyasından başlayaraq Qara Qarayev prospekti - "Koroğlu" metro stansiyası - Heydər Əliyev prospekti - Yusif Səfərov küçəsi - Neftçilər prospekti - "Azneft" dairəsi - Bibiheybət -Lökbatan Nəqliyyat Mübadilə Mərkəzi istiqamətində hərəkət edəcək.

(səh.9)

## Etiraz səslərini eşitmirik!

Fuad Abbasov: "Azərbaycan əsilli rus vətəndaşları niyə susurlar?!



**"Rusiyanın təxribatlara əl atması onun xarici siyasətinin ən başlıca fəaliyyət istiqamətidir".**

Bunu "Şərq"ə Rusiya mediasının Azərbaycana qarşı təxribatlarından danışarkən jurnalist, siyasi şərhçi Fuad Abbasov deyib.

*Onun qənaətincə, Rusiya ürəyi istəyən təxribatı orda yaşayan erməni və ermənipərəst politoloqlar vasitəsilə həyata keçirir...*

(səh.8)



## "Biz bütün dünyanın türk olduğu iddiasında deyilik"

Mehmet Öz: "Olanlar bizə yetər, amma türklər çoxhərəkətli millət olduğu üçün dünyanın hər yerində iz buraxıblar"

(səh.7)



## Minimum ehtiyac meyarı bir nəfər üçün ən azı 500 manat olmalıdır

Amma təəssüf ki, hökumət ərzaq zənbilində ən aşağı həddi əsas götürür

(səh.9)

## Kreml əfv etməyəcək

KTMT-dən uzaqlaşmaq Paşinyana baha başa gələcək



**Oktyabrın 25-də İrəvanda parlamentin dörd günlük növbəti sessiyası başlayıb.**

"Hraparak" yazıb ki, dörd günlük sessiya zamanı Ermənistanın Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatından (KTMT) çıxmasına dair dinləmələr keçiriləcək. Ötən gün "KTMT-dən Çıxma Assosiasiyası"nın təşəbbüs qrupu Ermənistan parlamentinin spikeri Alen Simonyana təklif ünvanlayıb.

(səh.6)



# Prezident İlham Əliyev Kasım-Jomart Tokayevi təbrik edib

**Prezident İlham Əliyev Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayevə təbrik məktubu ünvanlayıb.**

*Məktubda deyilir:*

"Hörmətli Kasım-Jomart Kemeleviç,

Qazaxıstan Respublikasının milli bayramı - Respublika Günü münasibətilə Sizi və bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edir, ən səmimi arzularımı çatdırıram.

Qazaxıstan dinamik inkişaf yolu ilə inamla irəliləyərək bütün sahələrdə mühüm nailiyyətlər əldə etmiş, beynəlxalq aləmdə layiqli yer tutmuşdur. Bu gün Sizin qətiyyətli rəhbərliyiniz altında ölkədə aparılan genişmiqyaslı islahatlar və quruculuq işləri qardaş ölkənizin hərtərəfli inkişafına və yüksəlişinə xidmət edir. Qazandığınız uğurlar qardaş ölkə olaraq Azərbaycanı da çox sevindirir.

Azərbaycan-Qazaxıstan münasibətlərinin hazırkı yüksək səviyyəsi ortaq tarix, mənəvi, mədəni dəyərlərlə bir-birinə sıx bağlı olan qardaş xalqlarımızın iradəsini bariz şəkildə təcəssüm etdirir.

Cari ilin avqustunda Azərbaycana rəsmi səfəriniz ölkələrimiz arasında əməkdaşlığın keyfiyyətcə yeni səviyyəyə yüksəlməsi, siyasi, iqtisadi, enerji, mədəni və digər sahələrdə əlaqələrimizin daha da inkişafı üçün yaxşı imkanlar açmışdır. Eyni zamanda bu yaxınlarda Astanada Sizinlə görüşümü məmnunluqla xatırlayır, əməkdaşlığımızın perspektivləri ətrafında apardığımız ətraflı fikir mübadiləsi və müzakirələrin Azərbaycan-Qazaxıstan münasibətlərinə yeni təkan verəcəyinə inanıram.

Əminəm ki, mövcud imkanlardan yararlanaraq ölkələrimiz arasında strateji tərəfdaşlıq xarakteri daşıyan çoxşaxəli əlaqələrin, həm ikitərəfli qaydada, həm də beynəlxalq təşkilatlar, xüsusilə də Türk Dövlətləri Təşkilatı çərçivəsində qarşılıqlı səmərəli əməkdaşlığımızın davam etdirilməsi və genişləndirilməsi yolunda bundan sonra da birgə səylər göstərəcəyik.

Bu bayram günündə Sizə möhkəm cansağlığı, xoşbəxtlik, dövləti fəaliyyətinizdə uğurlar, qardaş Qazaxıstan xalqına daim əmin-amanlıq və firavanlıq diləyirəm".

# İşlərin əksəriyyəti görülüb

## Azərbaycan Ordusunda "Türkiyə modeli" tətbiq olunur



**"Sülhdən siyasətçilər danışsa, daha yaxşı olar". Bu barədə Türkiyədə səfərdə olan Müdafiə naziri, general-polkovnik Zakir Həsənov Azərbaycanla Ermənistan arasında sülh danışıqlarına dair suala cavabında deyib. Nazir bildirib ki, Azərbaycan komandoları sərhəddəki döyüşlərdə öz vəzifələrini uğurla yerinə yetirirlər:**

"Bildiyiniz kimi, hərbi hissələrin təşkili ilə də bağlı işlər görülür. Komando hərbi hissələri yaradılıb və onlar da fəaliyyət göstərir". Z.Həsənov qeyd edib ki, Azərbaycan komandoları ötən ay sərhəddə Ermənistanın təxribatı zamanı baş vermiş döyüşlərdə öz imkanlarını nümayiş etdiriblər: "Onlar vəzifələrini uğurla yerinə yetirdilər. Digər məsələlər də uğurla həyata keçirilir".

**"Bir sıra müqavilələr imzalanıb"**

Müdafiə naziri, general-polkovnik Zakir Həsənov deyib ki, Azərbaycan Ordusu Türkiyədə keçirilən "Saha Expo" sərgisində nümayiş olunan əksər silahlarla maraqlanır. Nazir artıq bir sıra müqavilələrin imzalandığını diqqətə çatdırıb: "Baxırıq, müzakirələr aparırıq. Xüsusən qeyd etmək istərdim ki, son illərdə Türkiyədə silah istehsalında böyük işlər görülüb. Bu, bizi sevindirir. Artıq müqavilələrimiz də var".

Nazir Azərbaycan Ordusunda "Türkiyə modeli"nin tətbiqi üzrə görülən bir sıra işləri də açıqlayıb: "İşlərin əksəriyyətini görmüşük. Təşkilatı ştat strukturu dəyişib, sistem, əsasən idarəetmə dəyişib. Bu, uğurla tətbiq olundu. Bu, son döyüşlərdə də özünü göstərdi".

**"Türkiyənin müdafiə sənayesi sahəsində çox böyük irəliləyiş var"**

Zakir Həsənovun sözlərinə görə, son illərdə Türkiyənin müdafiə sənayesi sahəsində çox böyük irəliləyiş var: "Bildiyiniz kimi, bizim Türkiyə Silahlı Qüvvələri ilə çox sıx əməkdaşlığımız var. Cənab Prezidentin tapşırığı ilə Ordumuzun Türkiyə Silahlı Qüvvələrinə uyğun qurulması istiqamətində irəliləyirik, böyük işlər görürük. Təbi ki, bu məsələdə silah təchizatı və ordunun ən müasir silahlarla təmin edilməsi vəzifəsi dayanır".

**İsmayıl**



# "Azərbaycanın müdafiə ehtiyaclarını qarşılaya bilirik"

## Hulusi Akar: "Ən qısa zamanda öz milli qırıcımız və tankımızı da istehsal edəcəyik"

**"Bu gün Türkiyə olaraq Azərbaycan, Liviya və Şimali Kipr Türk Respublikası kimi dost və müttəfiq ölkələrin müdafiə ehtiyaclarını qarşılaya bilirik".**

"Report"un yerli bürosu xəbər verir ki, bunu Türkiyənin milli müdafiə naziri Hulusi Akar "SAHA EXPO 2022" müdafiə, aerokosmik və kosmik sənaye sərgisinin açılış mərasimində çıxışı zamanı bildirib.

Onun sözlərinə görə, Türkiyənin region və dünyada təhlükəsizliyi təmin edən ölkəyə çevrilməsinin əsas səbəblərindən biri milli müdafiə sənayesini inkişaf etdirməsidir: "Ölkəmiz bu sahədə bir çox ilkə imza atıb. Artıq öz silahlarımızı, pilotsuz uçuş aparatlarımızı, helikopter, raket və gəmilərimizi istehsal edən ölkəyik. Ən qısa zamanda öz milli qırıcımız və tankımızı da istehsal edəcəyik".

*Qeyd edək ki, oktyabrın 25-də İstanbul şəhərində 876 şirkət və 24 universitetin iştirakı ilə "SAHA EXPO 2022" müdafiə, aerokosmik və kosmik sənaye sərgisi öz işinə başlayıb. Azərbaycanın qonaq qismində milli stendi ilə qatıldığı tədbirdə ölkəni müdafiə naziri general-polkovnik Zakir Həsənov və müdafiə sənayesi naziri Mədət Quliyevin rəhbərliyi altında nümayəndə heyəti təmsil edir.*

# Siyasi təşkilatlardan gələn təkliflər nəzərə alınıb

## Vüqar Bayramov: "Siyasi partiyalar haqqında" qanun mütərəqqi sənəd olacaq"

**Ötən gün Milli Məclisdə partiya rəhbərlərinin və nümayəndələrinin iştirakı ilə "Siyasi partiyalar haqqında" qanun layihəsinin müzakirəsi keçirilib. Siyasi plüralizmin hökm sürdüyü dinləmədə tədbir iştirakçıları layihə ilə bağlı təmsil etdikləri partiya üzvlərinin iradəsini sərbəst ifadə etmək imkanı əldə edib.**



Müzakirələrdə çıxış edən siyasi partiya liderlərinin mövcud problemlərin, qarşıda duran məsələlərin həlli baxımından qanun layihəsinə öz münasibətlərini bildirmələri, onun ayrı-ayrı müddəaları barədə konkret rəy və təkliflərini səsləndirmələri üçün şərait yaradılıb. Ekspertlərə görə, "Siyasi partiyalar haqqında" yeni qanun layihəsinin müxtəlif platformalarda müzakirəsi müsbət haldır. Gələcəkdə bu tendensiyanın davam etdirilməsi sosial sifarişin təzahürüdür. Onu da qeyd etmək lazımdır ki, "Siyasi partiyalar haqqında" yeni qanun layihəsi bir çox mühüm məqamları özündə ehtiva edir. O səbəbdən hesab edilir ki, qanun layihəsi cəmiyyətdə baş verən hadisələrin, sosial-siyasi tələblərin daha dolğun qiymətləndirilməsinə xidmət etməklə, onun elmi əsaslarının daha da möhkəmləndirilməsinə fayda verəcək.

**Millət vəkili Vüqar Bayramov "Şərq"ə deyib ki, qanun layihəsinin hazırlanmasında siyasi partiyalardan gələn təkliflər nəzərə alınıb. Deputatın sözlərinə görə, "Siyasi partiyalar haqqında" qanun layihəsi ilə bağlı dinləmə demokratik müzakirə ənənəsindən xəbər verir:** "Milli Məclisdə "Siyasi partiyalar haqqında" qanun layihəsinin siyasi partiya sədrləri ilə birgə müzakirəsi Milli Məclisin müzakirələrə açıq olduğunu nümayiş etdirdi. Bu müzakirələr qanun layihəsi ilə bağlı siyasi partiyaların öz rəy və təkliflərini təqdim etməyə imkan yaratmaqla yanaşı, həmçinin təmsil etdikləri partiya üzvlərinin iradəsini sərbəst ifadə etmək imkanı demək idi. Son dinləmə eyni zamanda bu sahədə ictimai rəyin öyrənilməsinə imkan verməklə gələcəkdə bu tendensiyanın davam etdirilməsinə şərait yaradacaq. Qeyd etmək lazımdır ki, belə müzakirələrin keçirilməsi ali qanunverici orqanla siyasi partiyalar arasında əlaqələrin inkişafına xüsusi təkan verir. Müxtəlif sahələrdə dövlət siyasətinin formalaşması, həyata keçirilməsi və qərarların qəbulu zamanı ictimai-siyasi rəyin nəzərə alınması plüralizmin varlığının əsas göstəricisi kimi qiymətləndirilməlidir. Dinləmədən də göründüyü kimi, siyasi partiya rəhbərləri və nümayəndələrinin çıxışlarında da bu cür görüşlərin keçirilməsi vacib hesab olunur. Bu baxımdan, qanun layihəsi hazırda reallaşan islahatlar kontekstində yeni siyasi sistemin tələblərinə cavab verəcək mütərəqqi bir sənəd olacaq. Digər tərəfdən, qanun layihəsinin hazırlanması zamanı siyasi partiyalardan daxil olan təkliflər nəzərə alınıb. Beynəlxalq təcrübəyə istinad edilib ki, bu da layihənin əhəmiyyətini göstərən əsas faktorlardan hesab olunur".

**İsmayıl Qocayev**



# Regionda sülhün əsas təminatçısı Azərbaycandır

## Prezidentin Gürcüstana səfəri iki ölkə arasında siyasi-iqtisadi və mədəni əlaqələri daha da möhkəmləndirəcək

İsmayıl Qocayev

**Oktyabrın 24-də Prezident İlham Əliyev Gürcüstanda işgüzar səfərdə olub. Gürcüstanın Baş naziri İrakli Qaribaşvilinin dəvəti ilə həyata keçirilən bu səfər iki ölkə arasında diplomatik münasibətlərin qurulmasının 30-cu ildönümünə təsadüf edib. Qeyd olunub ki, səfərin məqsədi ölkələrimiz arasında yüksək səviyyədə olan əlaqələrin daha da inkişafına və qarşılıqlı maraq doğuran sahələrdə əməkdaşlığın gücləndirilməsinə töhfə verməkdir.**

Xatırladaq ki, budəfəki səfər Prezident İlham Əliyevin Gürcüstana sayca 10-cu səferidir. Bu, sübut edir ki, ölkələrimizi mehriban qonşuluq və tarixi dostluq əlaqələri, siyasi, iqtisadi, humanitar və digər sahələrdə strateji tərəfdaşlıq əlaqələri birləşdirir. Azərbaycan-Gürcüstan münasibətləri daim yüksək səviyyədə olub. Dövlətlərarası əlaqələrimizin zəngin tarixi var. İki ölkə arasında diplomatik münasibətlər 1992-ci il noyabrın 18-də qurulub. Qarşılıqlı hörmət və etimad üzərində qurulmuş Azərbaycan-Gürcüstan əlaqələri ötən illər ərzində dinamik şəkildə inkişaf edib və ölkələrimiz arasında siyasi, iqtisadi, enerji, humanitar və digər sahələrdə səmərəli əməkdaşlıq formalaşıb. Ötən dövr ərzində ali və yüksək səviyyədə çoxsaylı qarşılıqlı səfərlər baş tutub, 118-dən çox sənəd imzalanıb. Ölkələrimizin parlamentlərarası əlaqələri də fəal şəkildə davam etdirilir. Hər iki ölkənin qanunverici orqanında dostluq və işçi qrupları fəaliyyət göstərir. Azərbaycanla Gürcüstan arasında beynəlxalq təşkilatlar çərçivəsində də qarşılıqlı dəstək təcrübəsi mövcuddur. Xüsusi qeyd olunmalıdır ki, Azərbaycan ilə Gürcüstan arasında iqtisadi sahədə münasibətlər yüksək səviyyədədir. İqtisadi əməkdaşlıq məsələləri üzrə birgə Hökumətlərarası Komissiya 2004-cü ildən etibarən fəaliyyət göstərir. 2021-ci ildə Gürcüstan Azərbaycanın 8-ci xarici ticarət tərəfdaşı olub. Həmin ildə iki ölkə arasında ticarət dövriyyəsi 763 milyon dollar təşkil edib. Azərbaycanda 695 Gürcüstan investisiyalı şirkət fəaliyyət göstərir. Ümumilikdə Gürcüstandan Azərbaycana 259 milyon dollar, Azərbaycandan Gürcüstana isə 3,4 milyard dollar məbləğində investisiya yatırılıb. Azərbaycan ilə Gürcüstanın tarixi İpək Yolu üzərində yerləşməsi, ölkələrimiz tərəfindən birgə irimiqyaslı enerji və nəqliyyat layihələrinin icra edilməsi regionumuzdan keçən yük axınının həcmini dəfələrlə artırmağa imkan verib. Həmçinin humanitar sahədə əməkdaşlığı da xüsusi vurğulamaq lazımdır.

**Gürcüstanın "Geocase" beyin mərkəzinin sədri Viktor Kipiani deyib ki, Azərbaycan Prezidentinin səfəri ölkələrarası əməkdaşlığı və regional sülhü daha da möhkəmləndirəcək.** Onun sözlərinə görə, Prezident İlham Əliyevin Gürcüstana işgüzar səfəri və səsləndirdiyi mesajlar vaxtında və doğrudur: "Səfər ölkələr arasındakı ikitərəfli əlaqələrin daha da möhkəmləndirilməsi baxımından mühüm əhəmiyyət daşıyır. Prezident İlham Əliyev Tbilisiyə səfərindən öncə müxtəlif təşəbbüslər səsləndirib. Regionda uzunmüddətli sülh və sabitliklə bağlı bu təşəbbüslər Tbilisi tərəfindən çox xoş və isti qarşılanıb, dəstəklənib. Biz, həmçinin Gürcüstanın yüksək vəzifəli rəsmilərinin Bakıya səfərlərini də nəzərə almalıyıq. Düşünürəm ki, Azərbaycan Prezidentinin bu səfəri ölkələr arasında əməkdaşlığın daha da güclənəcəyinə dair çox doğru siqnal və doğru mesajdır. Bu, çox təqdir edilir və alqışlanılır. Ümid edirik ki, bu səfərlər vasitəsilə regional sülhün, həmçinin ikitərəfli əlaqələrin təməlləri daha da möhkəmləndiriləcək". Gürcüstanın "Rondeli" Strateji və Beynəlxalq Elmlər Fondunun nümayəndəsi Zurab Batiaşvilinin fikrincə, ölkələr arasında ticarət dövriyyəsinin 1 milyard dolları ötməsi əlaqələrin müsbət dinamikasını göstərir. Ekspertin sözlərinə görə, Gürcüstan və Azərbaycan mövcud beynəlxalq geosiyasi vəziyyət fonunda Avropanın enerji təminatında böyük rol oynaya bilər: "Gürcüstanla Azərbaycan arasında hər zaman yaxın əlaqələr olub və heç vaxt ikitərəfli əlaqələrdə bir problem olmayıb. Əksinə, ikitərəfli əlaqələr inkişaf edir. Məsələn, ticarət dövriyyəsi 1 milyard dolları ötüb. Əlbəttə, bunun davam etdirilməsi lazımdır. Prezident İlham Əliyevin səfəri bu baxımdan da önəmlidir. Bundan başqa, son zamanlarda Rusiya-Ukrayna müharibəsi səbəbi ilə Avropanın enerji ehtiyacı yaranıb və Azərbaycan bu ehtiyacın böyük bir hissəsini qarşılayacaq. Təbii ki, bu enerji, bu təbii qaz Gürcüstan üzərindən keçəcək. Bu səfər bu baxımdan da önəmlidir. Eyni zamanda, bu il diplomatik əlaqələrimizin 30-cu ildönümüdür. Rəsmi olaraq təbii ki, 30 il keçir. Lakin biz tarixən qonşuyuq, biz əsrlər boyunca bu torpaqlarda yaşamışıq və yaşayacağıq".

**"Beynəlxalq Münasibətlər və Diplomatiya Araşdırmaları Mərkəzi"nin rəhbəri Samir Hümbətov deyib ki, Gürcüstan baş nazirinin Ermənistan-Azərbaycan arasında münaqişənin bitməsi ilə bağlı səyləri artırmaq təklifi diqqətçəkən məqamdır. Ekspertin sözlərinə görə, bu, onu deməyə əsas verir ki, növbəti görüşlərin liderlər səviyyəsində və XİN başçıları səviyyəsində Gürcüstanda keçirilməsi mümkündür:** "Əgər görüş orada baş tutarsa, bu, Azərbaycan üçün daha məqsədəuyğun ola bilər. Həmçinin, Gürcüstan baş naziri ikili əlaqələrə toxundu və bu əlaqələrin inkişafından məmnun olduğunu da bildirdi. Azərbaycan Prezidenti cənab İlham Əliyev də ikili siyasi-iqtisadi əlaqələrdən danışdı. Ölkə başçısı xalqlarımız arasında xoşməramlı əlaqələrin olduğunu da vurğuladı. Azərbaycan Prezidentinin indiki durumda Gürcüstana səfər etməsi və orada bəzi açıqlamalar verməsi xüsusi önəm daşıyır. Dövlət başçısı siyasi və iqtisadi əlaqələrə toxunarkən bildirdi ki, Azərbaycan Gürcüstana 3 milyard dollar investisiya qoyub. Bu isə o deməkdir ki, indiki halda Gürcüstan iqtisadiyyatına ən çox investisiya qoyan ölkələr sırasında Azərbaycan ön sıralardadır. Bundan başqa ölkə başçısı region və dünya üçün vacib əhəmiyyəti olan nəqliyyat-kommunikasiya xətləri barədə danışdı. Bəyan etdi ki, bu xətlər həm ikili münasibətlərə, həm də regional və qlobal münasibətlərə ciddi təsir mexanizmlərinə malikdir".

**Analitik vurğulayıb ki, görüşdə Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin əhəmiyyətinə də diqqət çəkilib:** "Ölkə başçısı bu məsələyə toxunmaqla onu demək istədi ki, Azərbaycan Gürcüstanın iqtisadiyyatına vəsait qoyduğu kimi nəqliyyatına da vəsait qoyur. Bu da Azərbaycanın maraqlarına xidmət edir. Beləliklə, İranın Hindistan-İran-Ermənistan-Gürcüstan nəqliyyat dəhlizi planı suya düşmüş oldu. Ölkə başçısı Azərbaycandakı və Gürcüstandakı dəniz limanlarına da toxundu. Prezident Azərbaycan və Gürcüstan vasitəsi ilə beynəlxalq yükdaşımaların artmasını vurğulayaraq bildirdi ki, bu tendensiya gələcəkdə də davam etdiriləcək. Yeni dəniz limanları vasitəsilə yükdaşımaların həcminin artacağı mümkündür ki, bu da ölkələrin iqtisadiyyatına ciddi təsir edəcək. Bu limanların və nəqliyyat dəhlizlərinin fəaliyyətinin daha da gücləndirilməsi isə o deməkdir ki, Azərbaycan İranı, Ermənistanı və onlara dəstək verən qüvvələri oyundan kənar vəziyyətdə qoymuş olur. Ölkə başçısı İlham Əliyevin Gürcüstan səfəri Azərbaycan-Gürcüstan-Türkiyə üçbucağını gücləndirməklə yanaşı, Hindistan-İran-Ermənistan ittifaqını zərbə altına qoymuş oldu".

# "Bəyanatınız Fransanın son tarixində ən uğursuz diplomatik gediş idi"

## Fransalı hüquq müdafiəçisi Makrona şillə kimi cavab verdi

**Fransada fəaliyyət göstərən Vicdan Azadlığı Uğrunda Koordinasiya Mərkəzinin rəhbəri Tyeri Vale bu ölkənin prezidenti Emmanuel Makronu Azərbaycanla bağlı son bəyanatına görə sərt tənqid edib.**

Trend-in məlumatına görə, "Causeur" Jurnalında "Həqiqət deyilmədən etibar yarana bilməz" başlığı ilə dərc edilən açıq müraciətində Fransalı hüquq müdafiəçisi Vale, Makronun bu bəyanatla Cənubi Qafqazda həssas sülhü təhlükə altına atdığını qeyd edib.

Müəllif qeyd edib ki, Makron həmçinin Avropa Birliyinin Ermənistan - Azərbaycan normallaşması prosesindəki roluna da şübhə salır.

Müraciətdə qeyd olunur ki, sonuncu Praqa görüşündə tərəflərin bir-birinin ərazi bütövlüyü və suverenliyini tanıması kimi vacib addımı fonunda, Makronun "Qarabağı Ermənistanın ürəyi" adlandırması həm beynəlxalq normalara hörmətsizlikdir, həm də bu razılığa zərbə vurub.

Avropanın kövrək sülh prosesindəki rolunu zədələyən Makron, Cənubi Qafqazı "daha da Rusiyaya tərəf itələmiş oldu" yazan Vale, məlum bəyanatı "postsovet dönəmində Fransanın ən uğursuz diplomatik gedişi" adlandırıb.

Hüquq müdafiəçisi, bəyanatını mənəvi dəyərlərə sədaqətlə əsaslandırmağa çalışan Makronu həm də ikiüzlülükdə ittiham edib. "Düşünmürəm ki, Qarabağ münaqişəsinin ən qaranlıq səhifəsi olan Ermənistanın törətdiyi Xocalı faciəsini sizin dediyiniz kimi "Ermənistanın apardığı tolerantlıq uğrunda mübarizə" çərçivəsinə sığdırmaq olar. Bunu bilib deməmək isə Fransanın quruluş prinsiplərindən olan "Bərabərlik" şüarına hörmətsizlikdir".




Müraciətin sonunda Vale, E.Makrona Fransanın həqiqi mənəvi dəyərlərinə sadiq olmağa, "Ermənistandakı dostlarını bu ölkənin əvvəlki qatil rejimləri tərəfindən törədilmiş Xocalı cinayətini tanımağa cağırmağı" məsləhət görür: "Bu Fransanın, Cənubi Qafqazda həqiqətən ehtiyac duyulan barışığa gerçək töhfəsi ola bilər".

"Xocalı: Barışıq üçün etiraf et" koalisiyasının üzvü, məşhur hüquq müdafiəçisi, "Srebrenisa anaları" birliyinin sədri Münirə Sübaşıçın, iki həftə öncə Cenevrədə, BMT İnsan Haqları Şurasında keçirilmiş konfransda etdiyi çıxışdan sitat gətirən Vale müraciətini "Etibarsız barışıq, həqiqət deyilmədən etibar yarana bilməz" sözlərilə bitirib.

# Bakının şərtləri

## Liderlərin Moskva görüşündə qərarlar gözlənilir




### “Putin Paşinyanı elə həddə cəzalandırmaq istəyir ki, baş nazir Qərbdən üz çevirsin”

**Prezident İlham Əliyevlə Ermənistanın Baş naziri Nikol Paşinyan arasında növbəti görüş gözlənilir. Bir ilə yaxındır ki, Avropa İttifaqının moderatorluğu ilə baş tutan danışıqlar raundunu yenidən Moskva əvəzləyir.**

Danışıqların Brüssel modeli zahirdə Rusiyanın ziddinə platforma kimi görünsə də, əslində Moskva üçün problem yaratmırdı. Ancaq Rusiya-Ukrayna müharibəsinin qızışması fonunda ABŞ Avropa İttifaqının təşəbbüslərini məharətlə öz xeyrinə dəyişdirməyi hədəflədi ki, Moskva da bundan qəzəbləndi. Rusiya, Azərbaycan-Ermənistan sərhədindəki toqquşmalarda Bakının maraqlarını önə çəkdi. Çünki İrəvanı cəzalandırma mexanizmində bu cür hərbi güc tətbiqi Kremlin regiondakı faydalı iş əmsalına müsbət təsir edirdi. Elə sərhəddəki genişmiqyaslı əməliyyatlardan sonra ABŞ-la Rusiya Cənubi Qafqazdakı səhmlərini artırmaq üçün rəqabətini əsaslı şəkildə gücləndirdi. Fransa Prezidenti Emmanuel Makron oyuna girərək, guya, Qərbin maraqlarının təəssübkeşi obrazını yaratdı. Sonra Makron özünü Praqada keçirilən görüşə pərçim edərək, guya, vasitəçilik statusunu nümayiş etdirdi.

**Siyasi şərhçi Aqşin Kərimov ”Şərq”ə açıqlamasında bildirib ki, Praqadakı danışıqlardan sonra Makron Azərbaycan-Ermənistan toqquşmasına görə Rusiyanı ittiham etməklə əynindəki libası yırtdı. Analitikin fikrincə, bu, Makronla Kreml arasındakı sövdələşmənin təzahürü kimi qiymətləndirilə bilər:** ”Məhz Makron Praqadakı danışıqlardan sonra Brüssel formatını zədələdi və ABŞ-ın gizli şəkildə üstünlük qazanmaq cəhdlərinin qarşısına keçdi. Rusiya-Ukrayna münaqişəsinin əvəzsiz ”tənzimləyicisi” olan Makron ölkəsinin Cənubi Qafqaz regionunda da Britaniya və ABŞ-la olan rəqabətini Rusiyanın əlinə oynayan topa çevirməyə girişir. Azərbaycan isə qlobal tərəflərdən birinin maraqlarının diktəsi ilə yox, yalnız özünün strateji-təhlükəsizlik məntiqi ilə istər Rusiyanı, istər ABŞ-ı, istərsə də Fransanı kəskin tənqid etmək qabiliyyətinə malikdir. Görünür, Rusiya dairələri dövlət başçısı İlham Əliyevlə Paşinyanın Praqadakı danışıqlarından sonra belə qənaətə gəliblər ki, Bakı balans siyasətindən çıxaraq Qərbin regionda üstünlüyünü təmin etməyə çalışır. Ona görə də son günlər Rusiya mediasında Azərbaycanı ittiham edən və Ermənistanın maraqlarına oynayan motivlər yayımlanır. Lakin Azərbaycan da dövlət televiziyası və XİN səviyyəsindəki bəyanatlarla adekvat cavablar verməkdədir. Hər halda Azərbaycanla Rusiya arasında hansısa nöqtədə bir gərginlik mənbəyi ərsəyə gəlib. Yəqin ki, bu, daha çox Praqadakı danışıqlarda hansısa bir tezislə bağlıdır. Bununla belə, Azərbaycanın nə ABŞ, nə də Rusiya ilə münasibətlərinin ruhuna əsaslı xələl gəlib. Fransa isə özünü çoxdan ”yandırıb””.

*A.Kərimov vurğulayıb ki, Rusiya Prezidenti Vladimir Putinin təşəbbüsü ilə Azərbaycan-Ermənistan liderlərinin budəfəki müzakirə predmetləri İrəvanın öhdəliklərdən boyun qaçırması, Moskvanın üzərinə düşən öhdəliklər, Azərbaycanın sərhəddə maraqlarının təmin edilməsi istiqamətində inkişaf etdiriləcək:* ”Rusiya Azərbaycanın Türkiyə ilə dərinləşən strateji müttəfiqliyinin Qərbin əlinə fürsət verməməsi üçün 10 noyabr bəyanatının, həmçinin 11 yanvar və 26 noyabr bəyanatlarının icrasında tələsir. Rusiya Zəngəzur dəhlizinin açılmasına da maraq göstərir. Lakin 10 noyabr bəyanatının 4-cü bəndinin icrası üzrə işlər axsamaqdadır. Rusiya sülhməramlılarının müvəqqəti yerləşdiyi Azərbaycan ərazilərində hələ də erməni silahlı birləşmələri qalmaqdadır. Moskva onları kənara tullamaq üçün keyfiyyətli bir həmlə həyata keçirmir. Hətta az qala məsuliyyətindən boyun qaçırır. Düzü, Rusiyanın kənarda qalması Azərbaycan üçün ziyanlı da deyil, çünki Bakı Qarabağdakı erməni faktorunu daxili təhlükəsizlik məsələsi səviyyəsinə endirib, elə Moskvanı da narahat edəcək amil bu ola bilər. Ona görə ki, Rusiyanı da, Qərbi də bir xətt birləşdirir - erməni amili. Lakin hərəsi öz məntiqi çərçivəsində məsələyə yanaşdığından maraq toqquşmaları şiddətlənir. Rusiya hazırda qoşunlarının Qarabağda qalmasına həddsiz maraq göstərmir. Ondansa, həmin zonada rus icmasının formalaşması Moskva üçün daha böyük dividenddir. Azərbaycan isə olanları izləyir və perspektiv niyyətləri duyur, buna görə də Moskvaya bəzi xatırlatmalar veriləcək. Üstəgəl, İlham Əliyev istər Putinə, istərsə də Paşinyana Azərbaycanın sərhəddə tətbiq edə biləcəyi yeni hərbi əməliyyatlar barədə mesajları çatdıracaq. Rusiya liderinin buna qarşı çıxması gözlənilmir”.

*A.Kərimova görə, Putin Paşinyanı elə həddə cəzalandırmaq istəyir ki, baş nazir Qərbdən üz çevirsin və Rusiyanın forpostu olmasını unutmasın:* ”Bu baxımdan Azərbaycanla Ermənistan arasındakı sülh müqaviləsinin ilkin versiyası üzərində Bakının qoyduğu tələblər Moskvanı qane edəcək. Lakin detalların müəyyən edilməsində müzakirələr uzun sürəcək. Ümumilikdə Putinin təşəbbüsü ilə baş tutması gözlənilən budəfəki görüş 10 noyabrdan sonrakı danışıqların məntiqi davamıdır. Brüssel formatına qarşı duruş sərgiləmək xətti inkişaf etməyəcək. Görüşdə nəticə olaraq bəyanat qəbul edilməsi də gözlənilir”.

**İsmayıl Qocayev**

## MEDİA ASAN Radio ilə birgə “Smart media” rubrikasına başlayır




**Medianın İnkişafı Agentliyi (MEDİA) ASAN Radio ilə birgə media savadlılığının artırılması məqsədilə ”Smart media” rubrikasına başlayır.**

Bu barədə ”Report”a MEDİA-dan məlumat verilib.

Bildirilib ki, qlobal informasiya mühitinin əsas anlayışlarından olan media savadlılığı ilə bağlı məlumatlılığın artırılması üçün bu gündən etibarən həm ASAN Radio-nun dalğasında səsləndirilən çarxlar, həm də sosial media hesablarımızda paylaşılan postlar vasitəsilə mövzu ilə əlaqədar əsas suallar cavablandırılacaq.

## Zelenski: Ukrayna 17 milyard dollarlıq bərpa planı üçün bir sent də almayıb



**”Ukrayna 17 milyard dollarlıq sürətli bərpa planı üçün bir sent də almayıb”.**

APA ”Sky News”a istinadən xəbər verir ki, bunu Ukrayna Prezidenti Vladimir Zelenski Berlində keçirilən konfransda onlayn formatda çıxışı zamanı deyib.

Ukrayna Prezidenti bildirib ki, Rusiya raketləri və İran istehsalı olan dronların zərbələri nəticəsində ölkənin enerji sektorunun üçdə bir hissəsi məhv olub.

”Rusiya bu qışdan sağ çıxmağımızı çətinləşdirmək üçün hər şeyi məhv edir ki, Ukrayna mümkün qədər gec özünə gəlsin, biz Ukraynanın iqtisadi potensialını Avropanın iqtisadi potensialına inteqrasiya edə bilməyək”, - Zelenski qeyd edib.

## Vaşinqton Cənubi Qafqazda sabitlik görmək istəyir

### ABŞ İranın Azərbaycanla sərhəddə təlim keçməsinə münasibət bildirib

**“Vaşinqton Cənubi Qafqazda sabitlik görmək istəyir”.**

Bu barədə ABŞ Dövlət Departamentinin sözçüsü Ned Prays brifinqdə bildirib. İranın Azərbaycanla sərhəddə keçirdiyi son hərbi təlimlərdən danışan Prays vurğulayıb ki, ABŞ regionda sabitlikdə maraqlıdır. ”Biz regionda Ermənistanla Azərbaycan arasında gərginliyi azaltmaq və eyni zamanda daha ciddi gərginliyin qarşısını almaq üçün bu ölkələrlə işləyirik”.

## “Səbirsizliklə yurduma qayıdacağım günü gözləyirəm”

### Dağbəyi İsmayılov bütün həmkarlarını Qubadlıdakı evinə dəvət etdi



**Qubadlı şəhərinin işğaldan azad edilməsinin ildönümüdür.**

**Azərbaycan Ordusunun 2020-ci il sentyabrın 27-də başladığı əks-hücum nəticəsində aparılan döyüş əməliyyatları ilə 2020-ci il oktyabrın 25-də Qubadlı şəhəri erməni işğalından azad edilib.**

İkinci Qarabağ müharibəsi zamanı, rayonun şərqində yerləşən Cəbrayıl rayonunda düşmən qüvvələrinə sarsıdıcı zərbə vurulması və cənubda yerləşən Zəngilan rayonunda qısa müddətdə aparılan uğurlu əməliyyatlar, Azərbaycan Silahlı Qüvvələri bölmələrinin Qubadlı rayonunun inzibati hüdudlarına çıxmasına şərait yaradıb.

Oktyabrın 26-da isə dövlət başçısı xalqa müraciətində bir aya yaxın davam edən Vətən müharibəsində düşmənin məhv edilmiş və qənimət götürülmüş silah və texnikasını açıqlayıb, eyni zamanda, Azərbaycan Ordusunun oktyabrın 25-də Qubadlı şəhəri ilə yanaşı, rayonun Padar, Əfəndilər, Yusifbəyli, Çaytumas, Xanlıq, Sarıyataq, Molabürhan, Zəngilan rayonunun Birinci Alıbəyli, İkinci Alıbəyli, Rəbənd, Yenikənd, Cəbrayıl rayonunun Qovşudlu, Sofulu, Dağ Maşanlı, Kürdlər, Hovuslu və Çələbilər kəndlərinin işğalına son qoyulduğunu bəyan edib. Qubadlı şəhərinin işğaldan azad edilməsi uğrunda şiddətli döyüşlər gedib. Düşmənin müqavimətini qıran Azərbaycan Ordusu onu geri çəkilməyə məcbur edib, ağır məğlubiyyətə uğradıb. Qubadlı əməliyyatı zamanı Ermənistan ordusunun xeyli canlı qüvvəsi və texnikası məhv edilib. Azərbaycan Respublikasında ”Qubadlının azad olunmasına görə” medalı da təsis olunub.

**Qubadlının azad edilməsini hər zaman səbirsizliklə gözlədiyini deyən Əməkdar jurnalist Dağbəyi İsmayılov ”Şərq”ə bildirib ki, bu rayonun işğaldan qurtarılması çox böyük nailiyyətdir:** ”Qubadlı Ermənistanın Qafan, Gorus rayonları ilə sərhəddə yerləşir. Bu rayonun əhalisi hələ 1-ci Qarabağ savaşında öz torpaqlarını ən sonda tərk etməyə məcbur qalmışdı. Mən də bir qubadlılı kimi müzəffər Ali Baş Komandana və ordumuza təşəkkür edirəm. Çünkü onların sayəsində, bizə bu torpaqları yenidən görmək qismət oldu. Düzdür, ermənilər vəhşilik törədərək orada daşı daş üstündə saxlamayıblar. Amma bu, bizim üçün böyük bir problem deyil. Ona görə ki, o torpaqlar yenidən dirçələcək və Qubadlı əvvəlkindən də gözəl bir məkana çevriləcək. Cənab Prezident bu yaxınlarda Qubadlıda səfərdə olarkən rayonun baş planını təsdiq etdi və ”Zəfər”,”İşğal” muzeylərinin təməlini qoydu. Bu, Qubadlıdakı sürətli dirçəlişin və yenidənqurmanın başlanğıcıdır. Mən səbirsizliklə Qubadlıya qayıdacağım günü gözləyirəm. ”Şərq” vasitəsilə bütün həmkarlarımızı Qubadlıdakı evimizə qonaq dəvət edirəm”.

**Nihat Müzəffər**

# Tbilisi mərkəz rolunu oynaya bilər

## Azərbaycan-Gürcüstan-Ermənistan məsləhətləşməsi mümkündür

**Xəbər verdiyimiz kimi, Azərbaycan Prezidenti İlham Əliyev Gürcüstanda işgüzar səfərdə olub. Prezident bu ölkənin Baş naziri İrakli Qaribaşvili ilə təkbətək görüşüb və sonra liderlər mətbuat konfransında çıxış ediblər.**

Azərbaycan prezidenti gələcəkdə Gürcüstan, Azərbaycan və Ermənistan arasında üçtərəfli məsləhətləşmələrin başlanması məsələsini gündəmə gətirib və Azərbaycanın buna hazır olduğunu bildirib.



"Cənubi Qafqazın gələcəkdəki təhlükəsizlik konsepsiyasının üç ölkə tərəfindən reallaşdırılması ideal bir vəziyyət olardı"

Dövlət başçısı deyib: "Hesab edirik ki, Qarabağ münaqişəsi başa çatdı və Azərbaycanla Ermənistan arasında sülh sazişi imzalamaq vaxtı yetişdi. Niyyətimiz budur. Biz 5 əsas prinsipdən ibarət təklifimizi Ermənistan tərəfinə təqdim etmişik. İnanırıq ki, Ermənistan həm də beynəlxalq ictimaiyyət tərəfindən tanınan bu əsas prinsiplər əsasında siyasi iradə nümayiş etdirəcək və sülh müqaviləsini bağlayacaq. Bununla Cənubi Qafqaza sülh gələcək və əməkdaşlıq imkanları yaranacaq. Biz Gürcüstan-Azərbaycan-Ermənistan məsləhətləşmələrinin başlanması ilə bağlı da fikir mübadiləsi apardıq. Ermənistan tərəfi də buna razıdırsa, biz hazırıq".

Gürcüstanın Baş naziri İ.Qaribaşvili çıxışında Azərbaycan prezidenti ilə regiondakı vəziyyəti, Azərbaycan və Ermənistan arasındakı görüşləri və sülh prosesini müzakirə etdiklərini söyləyərək "Mən və hökumətimiz Azərbaycan və Ermənistan arasında sülhün qorunması üçün əlimizdən gələni edəcəyik" deyib.

**Azərbaycan prezidentinin Gürcüstan səfərinin hər iki ölkənin əlaqələrinin daha da inkişaf etdirilməsinə dair razılaşmaların imzalanması ilə yadda qaldığını deyən Real Partiyasının sədr müavini Natiq Cəfərli "Şərq"ə bildirib ki, bu səfərdə Tbilisi özünü Azərbaycan-Ermənistan münasibətlərinin normallaşdırılması platforması kimi təqdim etməsi, ölkə başçısı tərəfindən xoş qarşılandı:** "Hətta Qarabağ işğal altında olduğu zamanlarda da, Azərbaycan-Ermənistan arasındakı müxtəlif görüşlər Gürcüstanda keçirilib. Siyasətçilər, jurnalistlər, alimlər və sivil toplumun nümayəndələri də Gürcüstanda Ermənistanla müəyyən müzakirələrdə iştirak ediblər. Yəni Tbilisinin bu məsələdə təcrübəsi var.

Daimi müzakirələrin aparılması üçün Gürcüstandan mərkəz kimi istifadə olunması mümkündür. Ümumiyyətlə, Cənubi Qafqazın gələcəkdəki təhlükəsizlik konsepsiyasının üç ölkə tərəfindən reallaşdırılması ideal bir vəziyyət olardı. Çünki bu regionun gələcəyi normal münasibətlərin qurulmasından və Azərbaycanla Ermənistan arasında sülhün yaradılmasından keçir.

Bunu rəsmi İrəvan da anlamalıdır. Sülh danışıqlarını uzatmaqla və sülh prosesinə maneə yaratmaqla, Cənubi Qafqaza ən böyük təhlükəni isə Ermənistan yaradır".

**Nihat Müzəffər**

## Danışıqlar aparılır

### Türkiyə insansız hərbi maşınını Azərbaycanda sınaqdan keçirmək niyyətindədir



**"HAVELSAN" şirkəti "Barkan" insansız hərbi maşını yaxın zamanda Azərbaycanda sınaqdan keçirmək niyyətindədir.**

Bu barədə APA-nın İstanbul müxbirinə açıqlamasında şirkətin İdarə Heyətinin üzvü, pilotsuz aparatlar üzrə layihə müdiri Veysel Ataoğlu deyib.

O qeyd edib ki, Azərbaycan və Türkiyə tərəfi bununla bağlı danışıqlar aparır.

Şirkət rəsmisi onu da qeyd edib ki, "HAVELSAN" gələn il Azərbaycanda istehsalata başlaya bilər: "Təklifimizi Azərbaycan tərəfinə təqdim etmişik və bu məsələ ilə bağlı işlər gedir. Bizim üçün Türkiyə və Azərbaycan Silahlı Qüvvələri arasında fərq yoxdur. Hər cür dəstəyi verməyə hazırıq".

*Xatırladaq ki, Azərbaycan Türkiyədən insansız zirehli maşın almaq istəyir və bir müddətdir bununla bağlı danışıqlar aparılır.*

## Azərbaycanda müdafiə xərcləri artırılır



**Azərbaycanda müdafiə xərcləri artırılır.**

Bu barədə oktyabrın 24-də Milli Məclisə daxil olmuş "Azərbaycan Respublikasının 2023-cü il dövlət büdcəsi haqqında" qanun layihəsində qeyd edilib.

Bildirilib ki, ölkənin müdafiə qabiliyyətinin gücləndirilməsi və milli təhlükəsizliyinin təmin edilməsi dövlət büdcəsinin əsas prioritet xərci olaraq qalmaqdadır. 2023-cü ilin dövlət büdcəsində bu məqsədlə 5,3 milyard vəsait nəzərdə tutulub ki, bu da 2021-ci illə müqayisədə 17,1 faiz çoxdur.



# İsa Həbibbəyli AMEA-nın yeni prezidenti seçildi

## Qarşıda Akademiyanın nüfuzunu bərpa etmək, dünya elminə inteqrasiya kimi mühüm vəzifələr durur

**Dünən Azərbaycan Milli Elmlər Akademiyasının Ümumi yığıncağı keçirilib. Tədbirdə Prezident Administrasiyasının Humanitar siyasət, diaspor, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri Fərəh Əliyeva, AMEA-nın Rəyasət Heyətinin üzvləri və Akademiyanın həqiqi və müxbir üzvləri iştirak ediblər.**

Ümumi yığıncağın müzakirəsinə çıxarılan ilk məsələ Azərbaycan Milli Elmlər Akademiyasının yeni Nizamnamə layihəsinin təsdiq edilməsi haqqında olub. 14 maddədən və 228 bənddən ibarət olan yeni Nizamnamə layihəsində Akademiyanın strukturu, vəzifələri və hüquqları, elmi mərkəzlərin fəaliyyət istiqamətləri müəyyən olunub. Akademik Arif Həşimov bildirib ki, Prezident "Azərbaycan Respublikasında elm və təhsil sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında" 28 iyul 2022-ci il tarixində Fərman imzalayıb. Fərmanda elm və təhsilin qarşılıqlı əlaqəsinin möhkəmləndirilməsi və bu sahələrdə idarəetmənin təkmilləşdirilməsi məqsədilə mühüm struktur dəyişiklikləri yer alıb. Akademikin sözlərinə görə, elm və təhsil sahəsində əsaslı struktur dəyişikliyi ilə əlaqədar olaraq yeni Nizamnamə üç ay müddətində prezidentə təqdim edilməlidir. Sonra AMEA-nın vitse-prezidenti, akademik İsa Həbibbəyli çıxış edərək yeni Nizamnamə layihəsini təqdim edib. Bildirib ki, yeni Nizamnamə Akademiyanın işinin və elmi fəaliyyətin yenidən təşkili ilə əlaqədar məsələləri, elmi-təşkilati proseslərin tənzimlənməsi mexanizmlərini əks etdirir. Daha sonra açıq səsvermənin nəticələrinə əsasən, AMEA-nın yeni Nizamnamə layihəsi təsdiq edilib.



"Daha elm məbədində əvvəlki kimi dedi-qodular, xoşagəlməz halları görmək istəmirik"

Sonra akademik Arif Həşimov Ümumi yığıncağın gündəliyindəki növbəti məsələnin AMEA-nın prezidenti vəzifəsinə seçkinin keçirilməsi olduğunu bildirib və bu vəzifəyə akademik İsa Həbibbəylinin namizdliyini təklif edib. Akademiklər Akif Əlizadə, İsmayıl Hacıyev, Zemfira Səfərova, Kamal Abdullayev və AMEA-nın müxbir üzvü Misir Mərdanov çıxış edərək akademik İsa Həbibbəylinin zəngin elmi-təşkilati fəaliyyəti, elm və təhsilin intreqrasiyası və inkişafı sahəsində bu günə qədər gördüyü işlər və şəxsi məziyyətləri barədə fikirlərini bildiriblər, onun namizədliyini dəstəkləyiblər. Daha sonra AMEA-nın prezidenti vəzifəsinə gizli səsvermə yolu ilə seçki keçirilib. Səsvermənin nəticəsinə əsasən, akademik İsa Həbibbəyli yekdilliklə AMEA-nın yeni prezidenti seçilib.

**İsa Həbibbəyli AMEA ilə bağlı gələcək planları açıqlayıb. Qeyd edib ki, qarşıda Akademiyanın nüfuzunu bərpa etmək, yenidən təşkilatlanmasını həyata keçirmək, dünya elminə inteqrasiya etmək kimi mühüm vəzifələr durur:** "Çalışacağıq ki, dövlətin dəstəyi ilə Azərbaycan elmini, elm və təhsil sahəsində inteqrasiyanı inkişaf etdirək, dünya elminin nailiyyətlərini ölkəmizə gətirək". Deputatlıq mandatına gəldikdə isə İsa Həbibbəyli qeyd edib ki, hazırda bu, müzakirə mövzusu deyil.

**AMEA-nın Fəlsəfə və Sosiologiya İnstitutunun əməkdaşı, türkoloq-alim Faiq Ələkbərli "Şərq"ə deyib ki, yeni Nizamnamənin təsdiqlənməsi, strukturların, vəzifə və hüquqların müəyyənləşməsi müsbət haldır. Alim ümid edir ki, dəyişikliklər həqiqətən AMEA-nın yeni üslubda formalaşmasına öz töhfəsini verəcək:** "Akademiya son illərdə yaşadığı böhrandan çıxaraq ancaq elm yolunda fəaliyyət göstərməli və inkişaf etməlidir. Bizim üçün vacib olan AMEA-dakı humanitar və ictimai elmlərin məhz elmi proseslərə cəlb edilməsidir. Daxildə və xarici miqyasda elmi uğurlarımızı, nailiyyətlərimizi artırmalıyıq. İsa Həbibbəylinin Akademiyanın yeni rəhbəri seçilməsi əslində gözlənilən idi. İsa müəllimin hər halda müəyyən xidmətləri olub. O, AMEA-nın yenidən təşkülündə, yeni dönəmdə bir sıra işlər görüb. Ümid edirik ki, İsa Həbibbəylinin Akademiyaya rəhbər seçilməsi müsbət nəticələr verəcək. İşin xeyirli olacağına inanırıq. Arzumuz odur ki, Akademiyada sözün həqiqi mənasında elmi mühit yaransın, elmi diskusiyalar müzakirə olunsun. Bundan sonra elm məbədində əvvəlki dedi-qoduları, xoşagəlməz halları görmək istəmirik".

**İsmayıl Qocayev**

ŞƏRQ
Müstəqil ictimai-siyasi qəzet
26 oktyabr 2022-ci il (çərşənbə)


## Zatulinin Ermənistana girişinə qadağa qoyuldu

### Paşinyan rusofobiyanın dozasını qaldırır



**Ermənistan hakimiyyəti Rusiya Dövlət Dumasının erməniрərəst deputatı Konstantin Zatulinin ölkəyə girişinə qadağa qoyub.**

Milli.Az bildirir ki, bu barədə Paşinyan ailəsinə məxsus "Haykakan Jamanak" qəzeti məlumat yayıb.

Nəşrin məlumatına görə, Zatulin ictimai müsahibələrində dəfələrlə Ermənistan hökumətini 44 günlük müharibəni məğlub etməkdə ittiham edib.

Üstəlik, Ermənistanın daxili siyasi həyatına müdaxilə edən Zatulin Nikol Paşinyanın getməli olduğunu dəfələrlə dilə gətirib. Zatulin hətta Ermənistan hakimiyyətini Ermənistan-Rusiya münasibətlərinə zərbə vurmaqda ittiham edə bilib. O, Ermənistana son səfəri zamanı "Yerkir Media"ya verdiyi müsahibədə baş naziri Ermənistanın suveren ərazisindən keçən dəhlizə imza atmaqda ittiham edib. Mümkün dəhlizlə bağlı suallar imzalayanlara verilməlidir, "dəhliz"i Paşinyan imzalayıb", - Zatulin bildirib.

Paşinyan konkret olaraq rusofobiyanın dozasını qaldıra-qaldıra gedir.

## Almaniya Prezidenti Ukraynada bomba sığınacağında qalıb



**Almaniya Prezidenti Frank-Valter Ştaynmayer Ukraynanın Çerniqov vilayətinə səfəri zamanı hava həyəcanı verildiyi üçün bomba sığınacağına düşməli olub.**

APA xəbər verir ki, bu barədə Spiegel jurnalı yazıb.

Hadisə Koryukovka şəhərində baş verib. Hava həyəcanına görə saat yarım sığınacaqda qalan Prezidentin orda yerli sakinlərlə söhbət etdiyi bildirilir.

## Cəsədlərin növbəti mübadiləsi baş tutub

### Ukrayna həlak olan 25 əsgərinin cəsədini geri alıb



**Oktyabrın 25-də Ukrayna ilə Rusiya arasında cəsədlərin növbəti dəyişdirilməsi baş tutub. Ukrayna həlak olan 25 əsgərinin cəsədini geri alıb.**

Bu barədə Ukraynanın Reinteqrasiya Nazirliyi məlumat yayıb.

"Həlak olan hərbçilərin meyitlərinin təhvil verilməsi üçün növbəti əməliyyat keçirilib. Ukrayna daha 25 müdafiəçisinin cəsədini qaytarıb. Əməliyyat itkin düşmüş şəxslər üzrə komissar Oleq Kotenko və bir sıra hüquq-mühafizə orqanlarının əməkdaşlığı ilə həyata keçirilib", - deyə məlumatda qeyd edilir.

Cəsədlərin qaytarılması prosesi Cenevrə Konvensiyasının normalarına uyğun olaraq həyata keçirilib.

# Kreml əfv etməyəcək

## KTMT-dən uzaqlaşmaq Paşinyana baha başa gələcək





"Ermənistan ikinci Ukrayna deyil ki, Rusiya ilə qarşı-qarşıya gəlsin. Qərb Ukraynaya göstərdiyi dəstəyi Ermənistana göstərməz, çünki coğrafiya çox fərqlidir"

İsmayıl Qocayev

**Oktyabrın 25-də İrəvanda parlamentin dörd günlük növbəti sessiyası başlayıb. "Hraparak" yazıb ki, dörd günlük sessiya zamanı Ermənistanın Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatından (KTMT) çıxmasına dair dinləmələr keçiriləcək. Ötən gün "KTMT-dən Çıxma Assosiasiyası"nın təşəbbüs qrupu Ermənistan parlamentinin spikeri Alen Simonyana təklif ünvanlayıb.**

Müraciət xarici əlaqələr, müdafiə və təhlükəsizlik, dövlət-hüquq məsələləri, regional və Avrasiya inteqrasiyası, insan hüquqlarının müdafiəsi və ictimai məsələlər daimi komissiyalarının rəhbərlərinə də ünvanlanıb. Nəşrin xəbərinə görə, bir neçə həftə əvvəl təşəbbüs qrupu üzvləri Andranik Koçaryanla qapalı görüş keçirib. Koçaryan onları prosesin başlayacağına əmin edib.

**Politoloq Azər Qasımov "Şərq"ə açıqlamasında bildirib ki, Ermənistanın KTMT-dən çıxmağa cəhd edəcəyi hələ Nikol Paşinyan hakimiyyətə gələndə proqnoz edilirdi. Ekspert vurğulayıb ki, 44 günlük müharibə dövründə Paşinyanın KTMT-nin onlara kömək etməyəcəyini bildiyi halda israrla quruma müraciət etməsinin səbəbi təşkilatı gözdən salmaq idi:** "Artıq bunu açıq elan edirlər. Rusiyanın başı Ukrayna müharibəsinə qarışıb. Beynəlxalq aləmin Rusiyaya qarşı münasibəti də bəllidir. Ona görə Ermənistan hesab edir ki, KTMT-dən çıxmasına Rusiya ciddi reaksiya göstərməyəcək. Ancaq İrəvan öz hesabında yanılır. Rusiya nə qədər zəifləmiş kimi görünsə də, Ermənistana təzyiq rıçaqlarını saxlamaqdadır. Ermənistan ikinci Ukrayna deyil ki, Rusiya ilə qarşı-qarşıya gəlsin. Qərb Ukraynaya göstərdiyi dəstəyi Ermənistana göstərməz, çünki coğrafiya çox fərqlidir. Ukrayna Avropanın "qapısında" yerləşir, Ermənistan isə heç yerə qapısı olmayan qapalı ərazidir. Bu baxımdan Ermənistana ətraf ölkələrin razılığı olmadan heç kim silah yardımı göstərə bilməz. Sadəcə, İranın yardım etməsini gözardı etmək olmaz. Hindistan, İran, Ermənistan marşrutu hər zaman aktualdır. Bu marşrutla silah daşınması mümkündür. Amma bunun nəyisə dəyişmək gücündə olması qeyri-ciddi məsələdir. Əsas məsələ ondadır ki, nə qədər silahı olsa da, Ermənistan əhalisinin sayı və əsgər potensialı məlumdur. Ermənistanın gələcəyə doğru planlar çızmasında perspektiv yoxdur. Absurd qərarlarla Ermənistan özünü daha da dalana dirəmiş olacaq, çıxılmaz vəziyyətə düşəcək".

**Analitik vurğulayıb ki, KTMT-dən çıxmaq nəzəri baxımdan çətin iş deyil və hüquqi prosedurun bir il müddətində reallaşması mümkündür:** "Gürcüstan misalında bunu görmüşük. Ermənistan parlamentinin riskli qərarının nə ilə nəticələnəcəyi çox maraqlıdır. Hesab etmək olar ki, Rusiya bu durumda ilk növbədə Ermənistanın qaz təminatını kəsəcək. Bütün borclarını tələb edəcək. Borcları Qərb ödəsə belə, qaz təminatının təmin edilməsi qeyri-mümkündür. Ermənistan əhalisi və iqtisadiyyatı qısa zamanda çıxılmaz vəziyyətə düşə bilər. Təbii ki, bunlar Ermənistan üçün ən "yaxşı" variantlardır. Əsas təhlükə Rusiyanın Ermənistanda çevriliş etməsi, oradakı ordusunu hərəkətə gətirməsidir".

# Ermənistan Rusiya ilə Qərbin qarşıdurma mərkəzinə çevrilir

## Üstəlik, Hindistan və Pakistan da regionda nüfuz uğrunda yarışa hazırlaşır

**Ermənistanla Hindistanın yaxınlaşması əvvəllər mövcud olmayan tamamilə yeni əməkdaşlıq oxudur. Bu həftə Ermənistanın Müdafiə naziri Suren Papikyan Yeni Dehlidən qayıdıb. Nazir orada Zaqafqaziya respublikasına Hindistan silahlarının tədarükü ilə bağlı bir sıra görüşlər keçirib.**

Tərəflər bir sıra yeni müdafiə sazişləri imzalayıblar. Qeyd olunur ki, bir neçə həftə əvvəl iki ölkə Ermənistanın Hindistandan "Pinaka" reaktiv yaylım atəş sistemləri, tank əleyhinə "Konkurs" raket kompleksləri, 80 millimetrlik minaatan və digər silahlar alınmasına dair hökumətlərarası saziş imzalayıb. Bundan başqa, Ermənistan Hindistanın "Tata Advanced Systems Limited" (TASL) və "Solar Industries" şirkətləri tərəfindən hazırlanmış Hindistanın "Akaş" zenit-raket kompleksləri və kamikadze PUA-larının alınması imkanlarını nəzərdən keçirir. İndi Yeni Dehli "Fars körfəzi-Qara dəniz" İTC-nin tikintisində Ermənistanın mühüm strateji tərəfdaşına çevrilmək niyyətindədir. Bəzi ekspertlər hesab edir ki, ölkələr Türkiyə, Azərbaycan və Pakistan arasında dostluq və yaxın münasibətləri balanslaşdırmaq üçün birləşirlər.

**Beynəlxalq məsələlər üzrə ekspert Əziz Əlibəyli bildirib ki, keçən ay Hindistanın "The Economic Times" qəzetinin redaktoru Pranab Dhal Samanra "Hindistan "üç qardaş"ın Ermənistanda və başqa yerlərdə təhlükəli macəralarına göz yuma bilməz" başlıqlı məqalə dərc edib. Analitikin sözlərinə görə, təhlilçi xəbərdarlıq edib ki, əgər bu ölkələr Cənubi Qafqaza "sement" töksələr, digər regionlarda, xüsusən də Kəşmirdə, Hindistan və Pakistan arasında gərginlik ocağı olan mübahisəli ərazidə əməkdaşlıq edə biləcəklər:** "Türkiyə və Azərbaycan hər zaman Pakistanın Kəşmirlə bağlı mövqeyini dəstəkləyib. Pakistan öz növbəsində Qarabağda Ermənistanla hərbi toqquşmalarda Azərbaycanı dəstəkləyib. Samanra vurğulayır ki, Rusiyanın Ukraynada başının qarışdığı bir vaxtda Ermənistanın mövqeyi yeqin ki, Hindistanın maraqlarına uyğundur. Tərəflər hərbi əməkdaşlıq quraraq, kəşfiyyat məlumatlarının mübadiləsi və "terror təhlükəsi ilə mübarizə" üçün ümumi təhlükəsizlik



mərkəzi yaratmaq niyyətindədirlər. Hindistan hakimiyyəti Rusiya qəflətən öhdəliklərini pozmağa başlayarsa, İrəvana hərbi yardım göstərəcəklərindən çıxış edir. Bu günlərdə Ermənistanın Baş naziri Nikol Paşinyan açıq şəkildə Moskvaya eyham vuraraq "bunun üçün milyonlarla dollar ayrılsa da, bəzi müttəfiqlər silah vermir" deyib. Bununla belə, Dehli vurğulayır ki, o, yalnız Moskvaya kömək etməyə çalışır, ona heç bir təhlükə yaratmır. İndi Ermənistan ərazisində Rusiyanın Gümrüdəki hərbi bazası ilə yanaşı, Avropa İttifaqının mülki missiyası da yerləşir. Lakin belə çıxır ki, Ermənistan nəinki Rusiya ilə Qərbin qarşıdurma mərkəzinə çevrilir, üstəlik, Hindistan və Pakistan da regionda nüfuz uğrunda yarışa hazırlaşır. Tehran isə Ermənistandan iqtisadi vəziyyətini yaxşılaşdırmaq üçün istifadə etmək niyyətindədir. Bəs bütün bunlardan Ermənistanın özü faydalana biləcəkmi? Əsas sual budur".

**İsmayıl**

# “Biz bütün dünyanın türk olduğu iddiasında deyilik”

## Mehmet Öz: “Olanlar bizə yetər, amma türklər çoxhərəkətli millət olduğu üçün dünyanın hər yerində iz buraxıblar”



**Mərkəzi Ankarada yerləşən Türk Ocaqları Birliyinin baş direktoru, professor Mehmet Özün ”Yeni Azərbaycan” qəzetinə müsahibəsi:**

**- 1912-ci ildə qurulan Türk Ocaqları Birliyi bu il martın 25-də 110 illiyini qeyd etdi. 110 yaşlı bir qurum günümüzə qədər necə bir fəaliyyət yolu keçib?**

- Türk Ocaqları Birliyi Türkiyənin ən qədim, köklü ocaqlarından biridir, Osmanlı imperiyasının son dönəmində bir türkçülük cərəyanı qurumu olaraq yaradılıb. Türkiyədəki türkçülük ideyaları əslində XIX əsrdən başlayır. Dünyanın bir çox yerlərində milliyyətçilik düşüncələri özünü büruzə verib ki, Türkiyədə də bu olub. Yunanlar, serblər, ərəblər öz millətlərinin varlığını qabardınca Osmanlıda türkəsilli gənclər də öz milli kimliklərini bildirmək istəyiblər.

**- Hərbi tibb üzrə təhsil alan gənclər türkçü ziyalıları necə hərəkətləndirdi?**

- O dönəmlərdə Cənubi və Şimali Azərbaycandan, Krım, Kazan, Rusiyanın başqa şəhərlərindən, Özbəkistan və digər yerlərdən aydın fikirli türklər Türkiyə ilə mütəmadi təmasda olurdular, bəziləri İstanbulda təhsil alır, bəziləri gəlir-gedirdi, bəziləri də Türkiyədə müəllimlik edirdi. Məsələn, Kazan türkü Yusuf Akçura, Azərbaycandan Əhməd bəy Ağaoğlu, Əli bəy Hüseynzadə və sairə. Türk ocaqlarının yaradılmasında gənclərə dəstək verən, öndərlik edən bu ziyalılar olub. Rusiya müsəlmanları arasında ”cədidçilik” (yeniləşmə) cərəyanının öndərlərindən olan İsmayıl Qaspıralı bu ocaqda əvəzsiz xidmətlər göstərib. Türkçülük cərəyanının inkişafında Məhəmməd Əmin Rəsulzadənin də rolu olub. Təbii ki, Türkiyədə də bu cərəyanın fəalları var idi. Məsələn, ”Mən bir türkəm, dinim, cinsim uludur” məşhur şeirin müəllifi Məmməd Əmin Yurdakul, dilimizdə gəlmə sözlər deyil, təmiz türkcənin istifadə olunmasının tərəfdarı olan Ömər Seyfəddin də türkçülük, hətta turançılıq ideyalarının daşıyıcılarından olub. Beləcə, 1908-ci ildən başlayaraq hərəkətlənən türkçülük cərəyanı 1911-ci ildə hərbi tibb üzrə təhsil alan bir qrup tələbənin Türkiyədə türk millətinin yüksəlməsi üçün türkçülərə məktub yazması ilə sürətlənib. Sonradan digər gənclər də bu təşəbbüsə qoşulublar və qurum fəaliyyətə başlayıb. Amma rəsmi fəaliyyət 25 mart 1912-ci ildən başlanıb. Qurumun ilk rəhbəri Məmməd Əmin Yurdakul olub.

**Türk ocaqları gəncləri İstanbulu və İzmiri işğaldan xilas edib**

O dönəmin aydınlarının, ziyalılarının, millət vəkillərinin əksəriyyəti türk ocaqlarında yetişib. Birinci Dünya müharibəsindən sonra çökən Osmanlı dövlətinin iki dəfə İstanbul, bir dəfə İzmir şəhərləri işğala məruz qalarkən bu şəhərlərin işğaldan azad edilməsi üçün türk ocaqlarının fəallarının rəhbərliyilə böyük etiraz aksiyaları keçirilib. Hətta ingilislərin işğalından sonra türk ocaqlarının Əhməd Ağaoğlu, Ziya Göyalp kimi öndərləri Maltaya sürgün ediliblər.

**Atatürkün önəm verdiyi, xanımı Lətifənin fəxri üzvü olduğu 270 şöbəlik qurum**

1922- ci ildən 1931-ci ilədək Türkiyədə ən fəal dərnək olan bu qurumun 270-dən çox şöbəsi olub. Təhsil, sənətkarlıq kursları, humanitar dəstəklər, mədəniyyət, teatr dərnəklərinin, konfransların və başqa tədbirlərin təşkili kimi çox geniş fəaliyyət sahələri olub. Mustafa Kamal Atatürkün də ən çox dəstək verdiyi, həyat yoldaşı Lətifə xanımın da fəxri rəhbərlərindən olduğu bu təşkilatın üzvlərinin sayı Cümhuriyyət Xalq Partiyasından (CHP) da çox olub. O zaman Atatürk milli qüvvələrin bir arada toplanmasının tərəfdarı olduğunu bildirib və bu təşkilat 1931-ci ildə qapanıb.

**Türk ocaqlarının qapanmasında Rusiya amili**

**- Başqa bir səbəb də olubmu?**

- Təbii ki, o zamanlar Rusiya amili də vardı. 1931-ci ildən sonra QHT olaraq yox, dövlət təşkilatı olaraq ayrıca fəaliyyət göstərməyə başlayıb. Doğrudur, Türk ocaqları siyasi addım olaraq bağlanıb, amma bundan sonra da dövlətə xidmət edib. Türk ocaqlarının nəzdində 1931-ci ildə Türk Tarix Qurumu, 1932-ci ildə Türk Dil Qurumu yaradılıb. Qurumun öncüllərindən olan Yusuf Akçura Türk Tarix Qurumuna rəhbərlik edib. Türk ocaqlarının yerini xalq evləri əvəz edib. Amma Atatürkün Türk ocaqlarından qaynaqlanan türk tarixini və dilini öyrənmək, türk dünyası ilə bağlı fəaliyyət planları davam edib.

**Atatürkün Günəş Dili Nəzəriyyəsi nədən unudulub?**

- Yeri gəlmişkən, Atatürkün ən çox önəm verdiyi Günəş Dili Nəzəriyyəsi olub. Bu nəzəriyyəyə görə, türk dili dünya tarixində ilk dillərdən biridir. Əhməd Ağaoğlu da türklük tarixinin qədim olması düşüncəsinin daşıyıcılarından olub. Hətta Ağaoğlu ”Etrusk sivilizasiyası və onların Roma sivilizasiyasına təsiri” adlı kitab da yazıb. Amma nədənsə, sonralar bir çox dilçilər Atatürkün bu nəzəriyyəsinə qarşı çıxıb. Atatürkün vəfatından sonra əhəmiyyətini itirən bu məsələ Türk Ocaqları Birliyində necə qarşılanıb?

- Bəli, türklük tarixinin və türk dilinin çox qədim olması ilə bağlı Atatürkün ideyaları olub. O fəaliyyətlər Türk Dili və Türk Tarixi qurumlarında bir müddət davam edib, sonralar diqqətdən kənarda qalıb. Amma o dövrün şərtləri bu təşkilatın bağlanmasını tələb edirdi. 1949-cu ildə Türk ocaqları yenidən açılıb, məhdud olsa da, fəaliyyət göstərib. Təşkilatın nəşri olan ”Türk yurdu” da zamanla fəaliyyətini dayandırıb, amma günümüzə qədər hər ikisi mövcuddur. 1980-ci il dövlət çevrilişinə cəhddən sonra jurnal bugünədək fəaliyyətini davam etdirir. 1966-cı ilə qədər quruma türk dünyasının tanınmış siması, təhsil naziri Həmdullah Sübhi Tanrıövər kimi türkçü sədrlik edib. Onu da deyim ki, 19 il bu təşkilatda rəhbər olan Həmdullah Sübhi, həm də Məhməd Akif Ərsoyun yazdığı ”İstiqlal” marşının Türkiyənin himni olaraq qəbul edilməsində böyük rol oynayan şəxsdir.



“Atatürkün türk dünyasını öyrənmək ideyaları türk ocaqlarından qaynaqlanıb”

O zamanlar Azərbaycanda da türk ocağı bir müddət fəaliyyət göstərib. Hazırda da jurnalist dostumuz Akif Aşırlı bu quruma rəhbərlik edir. Bu qurum Azərbaycan dövlətinə məxsus ayrıca bir qurum olsa da, Akif bəy, həm də bizim təşkilatın təmsilçisidir. Keçən il türkdilli dövlətlərin müstəqilliyinin bərpasının 30 illiyi ilə əlaqədar Bakıda simpozium keçirdik. Bizim hazırda İraqda, Suriyada, Balkan ölkələrində də təmsilçiliklərimiz var.

**- Orta Asiya ölkələrində necə?**

- Qanunlara zidd olduğu üçün xarici ölkələrdə şöbə açmaq hüququmuz yoxdur, amma təmsilçiliklərimiz ola bilər. Orta Asiya ölkələrində də təmsilçiliklərimizin olmasını düşünürük.

- Rusiyanın tərkibində 23 muxtar türk respublikaları var. Bu ölkədə hətta bəzi araşdırmalarda 100-dən çox türk xalqlarının yaşadığı yazılır. Rusiyada hazırda ən qədim türklər olaraq bilinən Dükha türklərinin nəsli tükənmək üzrədir, sayı 280-dir, Çulım türklərindən 365 nəfər qalıb. Rusiyada yaşayan türk xalqları ilə əlaqələriniz varmı?

- Bizim təşkilatın Rusiyada fəaliyyət göstərməsi bu ölkənin siyasətinə uyğun deyil. Amma biz, məsələn, Dağıstandakı türklərlə əlaqə saxlayırıq, dini bayramlar zamanı təşkilatımızın imkanları daxilində kiçik də olsa sovqatlar göndəririk.

Zatən belə bir deyim var: Rusiya torpaqlarını qazarsan, altından türklük mirasları çıxar. Amma bizim başqa ölkələrin dövlətçilik siyasətilə işimiz yoxdur, biz yalnız mədəni-mənəvi əlaqələrin möhkəmləndirilməsi istiqamətində fəaliyyət göstəririk. Türkiyənin Rusiya ilə, Çinlə yaxşı əlaqələri var. Məqsədimiz bu münasibətlərin daha da möhkəmlənməsinə dəstək vermək şərtilə o coğrafiyalarda yaşayan türklərlə də əlaqələrimizi möhkəmləndirməkdir. Onların hansı bir problemi olarsa, maddi dəstək verə bilməyəcəyimiz təqdirdə biz onlara mənəvi dayaq oluruq və problemlərini dilə gətiririk.

**- Qərbdə də türklər az deyil, onlarla əlaqələrinizi hansı şəkildə qurmusunuz?**

- Biz dünyanın harasında türk varsa, həm də yalnız türklər deyil, bizə ümidini bağlayanlar, məsələn, Osmanlı dönəmində müsəlmanlığı qəbul eləyən, bizdən pənah gözləyən boşnaklara da sahib çıxırıq. Liviyada ata-babaları türk olan Kuloğulları var, onlar özlərinə Koroğulları, bəziləri də Qoroğulları deyirlər, amma dilləri unudulub, türkcə bilmirlər. Suriyada, Sudanda, Əlcəzairdə, Tunisdə, Afrikanın başqa yerlərində öz türkcəsini unutmuş türk kökənlilər var. Latın Amerikasında Türkiyədən gedən ermənilər özlərinə ”Əl-türko deyirlər”. Ermənı qıpçaqcasında türkcə yazılan bir çox ədəbiyyatlar mövcuddur.

Türkiyədən Yunanıstana gedən karamanlılar da türk kökənlilərdir. Asiya qitəsində Çində, Hindistanda, Pakistanda, Əfqanıstanda türklər yaşayır, hətta bəzi coğrafiyalarda türklüklərini tamamilə unudublar. Bunları sadalamaqla biz bütün dünyanın türk olduğu iddiasında deyilik. Olanlar bizə yetər. Amma türklər çoxhərəkətli millət olduğu üçün dünyanın hər yerində iz buraxıblar. Bəlkə də onlara zamanla türk deməyiblər, amma prototürklər, öntürklər dünyanın hər yerində olublar.

**Türklərin ortaq - vətəndaşlıq, hüquq, tarix, əlifba, mədəniyyət, iqtisadiyyat, təhsil, hərb məsələləri aktualdır**

**- Mehmet bəy, Ərzincanda 4 günlük Beynəlxalq Türk Dünyası simpoziumu keçirildi və önəmli mesajlar verildi, hətta türklərin ortaq vətəndaşlıq məsələsi də müzakirə edildi. Bu simpoziumu necə dəyərləndirirsiniz?**

- Bu tədbirə dəvət edilmişdim, amma mən, eyni zamanda universitetdə dərs dediyim üçün, çox təəssüf ki, bu tədbirə qatılmaq imkanım olmadı. Tədbiri mediadan izlədim və çox yüksək dəyərləndirirəm. 2009-cu ildə Naxçıvan Sazişi ilə türk dövlətləri arasında rəsmi əlaqələrin qurulmasının əsası qoyulmaqla çox böyük tarixi hadisəyə imza atıldı. Keçən il də bu quruma Türk Dövlətləri Təşkilatı adı verildi və inanıram ki, bu birlik daha da böyüyəcək, qüdrətlənəcək. Şimali Kipr də üzv olacaq. Bir çox dövlətlərin, Rusiyanın belə bu təşkilata üzv olmaq maraqları var.

Türkiyə ilə Azərbaycan arasındakı çox yaxın, sıx qardaşlıq münasibətinin olması türk dünyasındakı əlaqələri daha da möhkəmləndirir. Zəngəzur dəhlizinin açılması ilə çox böyük miqyas alacaq fəaliyyətlər olacaq.

Biz bu yaxınlarda Milli Kitabxanada ”Türk birliyinin gələcəyi” adlı bir panel keçirdik. Orada da bu məsələləri danışdıq. Amma təbii ki, görəcəyimiz çox işlər var. Əsas olan türk dövlətlərinin güc birliyidir. Əlbəttə, türk dövlətləri arasında ortaq vətəndaşlıq məsələsi də çox vacibdir. Türkdilli dövlətlərdən gələn tələbələrin təhsilinin asanlaşdırılması, türkdilli ölkə vətəndaşlarının digər türkdilli ölkədə iş təminatının təmini, tələbə və təhsil mübadiləsi, ortaq hüquq, ortaq tarix, ortaq əlifba, ortaq mədəniyyət, ortaq iqtisadiyyat və ortaq hərb məsələlərinə nail olmaq üçün var gücümüzlə çalışmalıyıq.

110 illik bir qurum olaraq türk ocaqları da bu istiqamətdə bacardığı qədər dəstəyini əsirgəmir. Yüzədək şöbə və təmsilçiliklərimiz var. Biz mədəni, mənəvi, elmi və təhsil kimi mövzularda türk millətini aydınlatmağa çalışırıq. Türkiyənin Ankara, İstanbul, Kayseri və başqa böyük şəhərlərində akademik məruzələr edirik. Bütün dünya türkləri ilə bağlı araşdırmalar bizim maraq dairəmizdədir.

**Sevil Hilalqızı Ünal, Ankara**



# Kremldən gələn təxribatlar

## Azərbaycan toplumunda Rusiyaya qarşı etimadsızlıq dərinləşir

**Rusiyanın "Birinci kanal"ında yayımlanan "Böyük oyun" verilişinin efirində rusiyalı politoloqlar və erməni əsilli ekspertlər tərəfindən açıq-aşkar anti-Azərbaycan çıxışlar səsləndirilib. Azərbaycanın ərazi bütövlüyü şübhə altına alınıb və dövlət xəritəsi təhrif edilib.**

Bununla əlaqədar Azərbaycanın Rusiyadakı səfirliyi tərəfindən Rusiya Federasiyası Xarici İşlər Nazirliyinə rəsmi sərt etiraz notası göndərilib. Notada xüsusi vurğulanıb ki, verilişin qonaqları öz çıxışları ilə Ermənistan cəmiyyətində revanşist qüvvələri keçmişdə qalan münaqişəni canlandırmağa təhrik edir və separatizmi açıq şəkildə dəstəkləməklə, iki xalq arasında düşmənçilik toxumu səpirlər. Səfirlik nazirliyin diqqətinə çatdırıb ki, dövlət telekanalında qərəzli bəyanatlardan istifadə edilməsi və aşkar siyasi təxribatlara yol verilməsi Rusiyanın rəsmi mövqeyinə ziddir. Həmçinin, regionda uzunmüddətli sülhün, sabitliyin və təhlükəsizliyin təmin edilməsi istiqamətində atılan addımlara xələl gətirir. Qeyd olunub ki, regionda mövcud olan kövrək sülh şəraitində gərginliyə səbəb ola biləcək və vəziyyəti daha da gərginləşdirə biləcək təxribatların qarşısının alınmasında KİV nümayəndələrinin üzərinə xüsusi məsuliyyət düşür. Təəssüflə vurğulanıb ki, sözügedən tok-şounun aparıcısı "Vahid Rusiya" fraksiyasının üzvü, Rusiya Federasiyası Dövlət Dumasının beynəlxalq məsələlər üzrə komitəsinin sədrinin birinci müavini Vyaçeslav Nikonovdur. Rusiyanın hakim partiyasının nümayəndələrinin bu cür davranışı Azərbaycan-Rusiya strateji tərəfdaşlığına, ikitərəfli münasibətlərə əhəmiyyətli dərəcədə zərər yetirir. Ona görə də Azərbaycan tərəfi Rusiyadan Rusiya KİV nümayəndələrinin təxribat xarakterli hərəkətlərinin dayandırılması və gələcəkdə təkrarlanmaması üçün təxirəsalınmaz tədbirlər görməyi tələb edib.

> Dövran dəyişib, artıq rus siyasətçilər də, rus mediası da ölkəmizə münasibətdə korrekt olmalıdır

Onu da xatırladaq ki, Rusiyanın "Birinci kanal" və "Komsomolskaya pravda" qəzetindən sonra anti-Azərbaycan təxribatı "marafonu"na "Rossiya24" xəbər kanalı da qoşulub. Kanalın efirində gedən 4 dəqiqəlik süjetdə yenə erməni əsilli ekspertlərin iştirakı ilə Ermənistan-Azərbaycan münasibətlərinin normallaşması müzakirəyə çıxarılıb. Qarabağın Azərbaycanın tərkibində qalmasının "mümkünsüzlüyü" qeyd olunub.

**"Türküstan" Media Qrupunun rəhbəri Aqil Camal "Şərq"ə deyib ki, artıq Azərbaycan Rusiyanın müxtəlif dairələrindən, deputatlarından, siyasətçilərindən, media resurslarından ölkəmizə qarşı təxribatçı çıxışlara, ermənipərəst mövqelərə öyrəşib. Baş redaktora görə, bəlkə də belə yanaşmalara toplumumuzda immunitet yaranıb:** "Baxmayaraq ki, ilin əvvəlində Azərbaycanla Rusiyanın münasibətləri rəsmən müttəfiqlik münasibətləri kimi elan olunub. Ancaq Azərbaycan demək olar ki, bu müqaviləyə ciddi yanaşır. Bu aspektdə iki məqamı örnək göstərmək istəyirəm. Astanada MDB dövlət başçılarının sammitində Rusiya Prezidenti Vladimir Putinə qarşı bir sıra dövlət başçılarının qeyri-səmimi, bəzən də saymazyana münasibəti ortada idi. Bunu elə Paşinyanın simasında da gördük. Lakin Azərbaycan Prezidenti həmin sammitdə Rusiyanın Azərbaycan-Ermənistan münasibətlərinin normallaşması, həmçinin, sonuncu insidentdə atəşkəsin əldə olunmasında xüsusi rolunu qeyd etdi. Ermənistan isə Rusiyanın iradəsinə və maraqlarına zidd olaraq Qərb müşahidə missiyasını ölkəyə dəvət edib. Rusiya mediasının və rus siyasətçilərinin bədbəxtliyi bu həqiqətləri görə bilməməkdir.

Digər tərəfdən, görürük ki, Ukrayna ilə müharibədə Belarus istisna olmaqla, heç bir MDB, hətta KTMT ölkəsi Rusiyanın yanında olmadı. Bu, Rusiyanın indiyədək onu əhatə edən ölkələrə qarşı Jirinovski düşüncəsi ilə yanaşmasının və Jirinovski dili ilə danışmasının nəticəsidir. Bu baxımdan, indi və bundan sonra Rusiya siyasətçiləri də, mediası da Azərbaycana münasibətdə korrekt olmalıdırlar. Əks halda Azərbaycan toplumunda mövcud olan etimadsızlıq daha da dərinləşəcək".

**İsmayıl Qocayev**

# Etiraz səslərini eşitmirik!

## Fuad Abbasov: "Azərbaycan əsilli rus vətəndaşları niyə susurlar?!



**"Rusiyanın təxribatlara əl atması onun xarici siyasətinin ən başlıca fəaliyyət istiqamətidir".**

*Bunu "Şərq"ə Rusiya mediasının Azərbaycana qarşı təxribatlarından danışarkən jurnalist, siyasi şərhçi Fuad Abbasov deyib. Onun qənaətincə, Rusiya ürəyi istəyən təxribatı orda yaşayan erməni və ermənipərəst politoloqlar vasitəsilə həyata keçirir:* "Etiraz görəndə isə deyəcəklər ki, Rusiyada söz azadlığı mövcuddur.

Rusiya kanalıdır, erməni olsalar da, rus vətəndaşı politoloqlarıdır. Bəs, Azərbaycan əsilli rus vətəndaşları niyə susurlar?! Azərbaycan Xarici İşlər Nazirliyi (XİN) Rusiyaya nota verə bilər. Amma Rusiya vətəndaşlığını qəbul edən azərbaycanlıların etiraz səsi nədənsə, yoxdur. Çünki orda diaspor fəaliyyəti aparılmır. Lobbiçilik mövcud deyil. Ermənilər də istədiklərini edirlər. Rusiya da dəstəkləyir. Azərbaycan əsilli rus vətəndaşları məsələyə laqeyd qaldığı üçün reaksiya yoxdur. Əgər Azərbaycan əsilli Rusiya vətəndaşları etiraz səslərini qaldırsaydılar, Prezident Administrasiyanın qarşısında mitinq keçirsəydilər, yaxud XİN-ə kütləvi məktub göndərsəydilər, Rusiya öz vətəndaşlarını dinləyərdi".

*Qeyd edək ki, Azərbaycanın səfirliyi Rusiya Xarici İşlər Nazirliyinə 2022-ci il oktyabrın 20-21-də Rusiyanın "Birinci Kanal"ında yayımlanan "Böyük oyun" verilişinin efirində rusiyalı politoloqlar və erməni əsilli ekspertlər tərəfindən səsləndirilmiş açıq-aşkar anti-Azərbaycan çıxışları, Azərbaycan Respublikasının ərazi bütövlüyünün şübhə altına alınması və dövlət xəritəsinin təhrif edilməsi ilə əlaqədar rəsmi sərt etiraz notası göndərib. Azərbaycan tərəfi Rusiyadan Rusiya KİV nümayəndələrinin təxribat xarakterli hərəkətlərinin dayandırılması və gələcəkdə təkrarlanmaması üçün təxirəsalınmaz tədbirlər görməyi tələb edib.*

**Aygün Tahir**

# Azərbaycana gələn turistlərin sayı artıb

## Turizm həm də valyuta bazarının qorunub saxlanmasında mühüm vasitədir

**Bu ilin yanvar-sentyabr aylarında Azərbaycana 176 ölkədən 1 milyon 162 min 700 nəfər və yaxud ötən ilin eyni dövrünə nisbətən 2,2 dəfə çox əcnəbi və vətəndaşlığı olmayan şəxs gəlib.**

Bu barədə Dövlət Statistika Komitəsi məlumat yayıb.

Gələnlərin 26,6 faizi Rusiya, 19,6 faizi Türkiyə, 11 faizi İran, 7,4 faizi Səudiyyə Ərəbistanı, 4,8 faizi Gürcüstan, 3,2 faizi Pakistan, 3,1 faizi Hindistan, 2,3 faizi Birləşmiş Ərəb Əmirlikləri (BƏƏ), 1,9 faizi Qazaxıstan, 1,8 faizi Ukrayna, 1,7 faizi İsrail, 1,6 faizi Küveyt, 1,5 faizi Özbəkistan, 1,4 faizi Oman, 1,1 faizi Böyük Britaniya, 11 faizi digər ölkələrin vətəndaşları olub, 74,4 faizini kişilər, 25,6 faizini qadınlar təşkil edib.

Ötən ilin eyni dövrü ilə müqayisədə Küveytdən gələnlərin sayı 167,9 dəfə, Omandan 130,8 dəfə, Səudiyyə Ərəbistanından 99 dəfə, Pakistandan 25,4 dəfə, Hindistandan 16 dəfə, Qazaxıstandan 5,7 dəfə, İsraildən 5,5 dəfə, BƏƏ-dən 5,2 dəfə, Bəhreyndən 4,8 dəfə, ABŞ-dan 3,4 dəfə, Almaniyadan 2,9 dəfə, Fransadan 2,7 dəfə, Böyük Britaniyadan 2 dəfə, Türkiyədən 1,7 dəfə, Ukraynadan 1,7 dəfə, Rusiyadan 1,7 dəfə, İrandan 1,6 dəfə, Gürcüstandan 25,5 faiz artıb.

Son 1 ildə körfəz ölkələrindən gələnlərin sayı 3,1 dəfə artaraq 283 600 nəfər, Avropa İttifaqına üzv ölkələrdən gələnlərin sayı 2,4 dəfə artaraq 55 800 nəfər, MDB ölkələrindən gələnlərin sayı 1,9 dəfə artaraq 395 300 nəfər olub.



**Mövzunu "Şərq"ə dəyərləndirən iqtisadçı Pərviz Heydərov vurğulayıb ki, turizm həm manatın, həm də valyuta bazarının sabitliyinin qorunub saxlanılmasında mühüm vasitədir:** "Neftin qiymətinin aşağı düşməsi ilə 2015 -ci ildə devalvasiya oldu. Bu hadisədən sonra dollar da bahalaşdı. Həmin böhranın ardından, 2016-cı ildə Azərbaycan hökuməti qeyri-neft sektorunun üzərinə ciddi şəkildə düşdü. Qeyri-neft sektorunun əsas qollarından biri olan turizmin inkişafı da zəruri məqsəd kimi qarşıya qoyuldu. Bundan sonra 2017, 2018, 2019-cu illərdə ardıcıl olaraq ölkəyə gələn turistlərin sayında ciddi artım müşahidə olundu.

Turistlərin ölkəyə axını nəticəsində, dövlətimizə külli miqdarda valyuta gəldi. Düzdür, bu, həlledici olmasa da, müəyyən dəstək baxımından ölkədəki valyuta bazarında sabitliyin təmin olunmasında xeyli rol oynadı.

Lakin təəssüf ki, 2020-ci ildəki pandemiyaya görə əldə olunan uğurlar itirildi. Yəni ölkəyə turist axını birdən-birə aşağı düşdü. Ümumiyyətlə, pandemiya dünyada ən ağır zərbəni turizmə vurdu. Keçən ildən başlayaraq isə ölkəyə turist axını yenidən bərpa edildi.

Bu il də ölkəyə gələn turistlərin sayı onu göstərir ki, bərpa prosesi sürətlə davam edir. Bunun səmərəsi isə gələn xarici vətəndaşların pul xərcləyərək, ölkəmizə xarici valyuta axınını təmin etməsidir.

Biz bu vəziyyətdən daha yaxşı istifadə etməliyik ki, gələcəkdə bu valyuta axını kəsilməsin, əksinə, daha da artsın".

**Nihat Müzəffər**

# Gediş haqqı 60 qəpik olacaq

## Bakıda yeni marşrut xətti fəaliyyətə başlayır




**Oktyabrın 27-dən Bakıda gediş haqqı 60 qəpik olmaqla yeni E1 ekspres marşrut xətti fəaliyyətə başlayacaq.**

Bu barədə Bakı Nəqliyyat Agentliyindən (BNA) məlumat verilib.

Məlumata görə, yeni xətt üzrə avtobuslar metronun "Xalqlar Dostluğu" stansiyasından başlayaraq Qara Qarayev prospekti - "Koroğlu" metro stansiyası - Heydər Əliyev prospekti - Yusif Səfərov küçəsi - Neftçilər prospekti - "Azneft" dairəsi - Bibiheybət -Lökbatan Nəqliyyat Mübadilə Mərkəzi istiqamətində hərəkət edəcək.

Marşrut xətti üzrə sərnişindaşımaları "BakuBus" MMC-nin istismarında olan avtobuslarla icra ediləcək. İlkin mərhələdə daşımalara 10 ədəd avtobus cəlb ediləcək. Xətt üzrə avtobuslar səhər saat 06:30-dan axşam saat 18:30-a qədər fəaliyyət göstərəcək. Avtobuslar hərəkət sxemi üzrə bütün dayanacaq məntəqələri üzrə deyil, yalnız əvvəlcədən müəyyən edilmiş sərnişin tələbatı daha çox olan məntəqələrdə dayanacaq.

"E1 xəttinin fəaliyyətə başlaması ilə vətəndaşların rahat, əlavə ödəniş etmədən metronun "Xalqlar Dostluğu" stansiyasından Lökbatan Nəqliyyat Mübadilə Mərkəzi istiqamətində rahat və birbaşa ictimai nəqliyyatla sürətli gediş-gəlişi təmin ediləcək. Bu da öz növbəsində vətəndaşların metronun qeyd olunan istiqamətdə qanunsuz sərnişindaşıma vasitələrindən, eləcə də fərdi avtmobillərdən istifadəsini azaldacaq. Əhalinin ümumi istifadədə olan nəqliyyatdan istifadəsinin stimullaşdırılması isə xüsusilə şəhərin mərkəzində şəxsi avtomobil ilə hərəkətin azaldılmasına müsbət təsir edəcək", - deyə BNA bəyan edib.



# Ayətulla rejimi bir qızı da öldürdü

**Tehranda keçirilən etirazlar zamanı hökumət qüvvələrinin başına vurduqları dəyənək zərbələri nəticəsində komaya düşən və xəstəxananın reanimasiya bölməsinə yerləşdirilən Arnika Qaim Məqami adlı gənc qız həyatını itirib.**

Milli.Az bildirir ki, İran İnsan Haqqları Təşkilatının verdiyi məlumata görə, başından ağır zədələr alan yeniyetmə qız repressiv qüvvələr tərəfindən aparılıb və sonradan onun orduya məxsus xəstəxanada reanimasiya şöbəsində huşsuz vəziyyətdə olduğu məlum olub.

Məsələnin ictimailəşməsindən sonra hökumət rəsmiləri gənc qızın yaşadığı binanın 4-cü mərtəbəsinin balkonundan yıxılaraq öldüyünü iddia ediblər.

*Xatırladaq ki, İranın məhkəmə hakimiyyəti və təhlükəsizlik orqanları son həftələrdə öldürülən onlarla insanın hündürlükdən yıxılma, zəhərlənmə və başqa bu kimi səbəblərdən öldükləri barədə cəfəng iddialar səsləndiriblər.*



# Azərbaycan-Rusiya sərhədində yük nəqliyyat vasitələrinin sıxlığı müşahidə olunur

**Ölkəmizin Rusiya Federasiyası ilə sərhəddə yerləşən Şimal Ərazi Baş Gömrük İdarəsinin "Samur" gömrük postunda yük nəqliyyat vasitələrinin sıxlığı müşahidə olunur.**

Bu barədə Trend-ə bu gün Azərbaycan Dövlət Gömrük Komitəsindən bildiriblər.

Bildirilib ki, "Samur" gömrük postunun ixrac nəzarət xətti ilə avtomobillərin yola salınmasında heç bir problem yoxdur və qarşı tərəfin buraxılış sayına uyğun olaraq yük nəqliyyat vasitələrinin keçidi təmin edilir.

Hazırda "Samur" gömrük postu gücləndirilmiş iş rejimində fəaliyyət göstərir və yük nəqliyyat vasitələrinin sıxlığının aradan qaldırılması istiqamətində bütün zəruri addımlar atılır. Dövlət Gömrük Komitəsinin aidiyyəti strukturları sərhədkeçmə proseslərinin sürətləndirilməsi üçün Rusiya tərəfi ilə müntəzəm danışıqlar aparır.

# 3 nəfər vəfat edib

## Son sutkada 64 nəfər koronavirusa yoluxub

**Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına 64 yeni yoluxma faktı qeydə alınıb, 66 nəfər müalicə olunaraq sağalıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan "Şərq"ə verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 3 nəfər vəfat edib.

Azərbaycanda indiyədək ümumilikdə 823 023 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib. Onlardan 812 743 nəfər müalicə olunaraq sağalıb, 9 940 nəfər vəfat edib, aktiv xəstə sayı 340 nəfərdir.

*Ölkədə son sutka ərzində 2 483, hazırkı dövrədək isə 7 309 540 test aparılıb.*

# Minimum ehtiyac meyarı bir nəfər üçün ən azı 500 manat olmalıdır

## Amma təəssüf ki, hökumət ərzaq zənbilində ən aşağı həddi əsas götürür





**Azərbaycanda ehtiyac meyarının həddi artırılır. Bu barədə oktyabrın 24-də Milli Məclisə daxil olmuş "Azərbaycan Respublikasının 2023-cü il dövlət büdcəsi haqqında" qanun layihəsində qeyd edilib.**

Bildirilib ki, növbəti ildə ehtiyac meyarının həddi 2022-ci illə müqayisədə 23 faiz artaraq 246 manat nəzərdə tutulur. Bununla da 2023-cü ildə ölkə üzrə yaşayış minimumu və ehtiyac meyarının hədləri bərabərləşmiş olacaqdır. Qeyd edək ki, 2022-ci il üçün ehtiyac meyarı 200 manat təşkil edib.

**İqtisadçı Natiq Cəfərli "Şərq"ə açıqlamasında ehtiyac meyarının ən aşağı həddə hesablandığını qeyd edi:**

- Azərbaycan hökuməti beynəlxalq təşkilatların tövsiyəsi əsasında yaşayış minimumu ilə ehtiyac meyarı hədləri bərabərləşdirmək istəyir. Ehtiyac meyarı dedikdə, bu, bildiyimiz minimum istehlak səbətidir. Hökumət minimum istehlak səbəti ilə ehtiyac meyarına eyni məntiqlə yanaşmağı hədəfləyib. Lakin beynəlxalq təşkilatların başqa bir tövsiyəsi də ehtiyac meyarının hesablanma qaydasına dəyişiklik edilməsidir. Hökumət bu tövsiyəni hələ ki, qəbul etməyib. Və yaşayış minimum ilə ehtiyac meyarını ümumi qaydada hesablayır. Minimum istehlak səbətinin və yaşayış meyarının hesablanmasında əvvəlki kimi ən aşağı qiymətləri, minimum qiymətləri əsas götürür. Məsələn, bir nəfərin aylıq ərzaq zənbili orqanizmin tələbatı olan gündəlik kaloriyə görə hesablanmalıdır. Minimum hədd olsun deyə, daha çox kalorili, eyni zamanda daha ucuz (heç ucuz da deyil artıq - M.R.) qidalar arasından çörək və kartof əsas götürülür. Halbuki kalorili qidalara qırmızı ət, balıq və balıq məhsulları, kərə yağı da daxildir. Amma 1 nəfərin günlük kərə yağı ehtiyacı 19 qram hesablanır. Yumurta üçün il ərzində 150 ədəd norma hesablanıb. İlimiz 360 gündürsə, bu, 2 gündən 1 bir yumurta yeyilməsi deməkdir. Hələ 10 gün də ixtisara düşür. İnternetdən istifadəyə 15 dəqiqə verilir və 15 dəqiqəlik internetin qiyməti hesablanır. Üst geyimləri 3 ildən 1 "dəyişdirilməsi" nəzərdə tutulur. Lap tutalım, kimsə geyimi səliqəylə geyindi, cırılmadı, nimdaş olmadı, 3 il geyindi. Bəs ayaqqabı, digər geyim əşyaları? Məsələn, nəfərin aylıq nəqliyyat xərci 6 manat hesablanır. Halbuki əhalinin işləyən hissəsi əmək haqqının tutarlı bir hissəsini nəqliyyat xərclərinə sərf edir. İş yeri yaşayış ünvanından uzaq məsafədə olan, bir neçə ictimai nəqliyyatdan istifadə edən, axşam saatlarında fərdi taksi xidmətindən istifadəyə məcbur qalan əməkçilər var. Yəni hökumətin hesablaması keyfiyyətli ehtiyac meyarı deyil, keyfiyyətli yaşayış üçün də deyil. Axı insanın həyatı iş və evdən ibarət olmamalıdır. Hər bir insan teatra, kinoya da getmək istəyir, gəzintiyə də çıxmaq istəyir. Bunlar da insanların təbii haqlarıdır. Hələ biz səhiyyə xərclərini demirik. Dərman preparatlarının alınmasına insanlar nə qədər vəsait xərcləyir, bəs kommunal xərclərə nə qədər?

**N.Cəfərli qeyd etdi ki, qardaş Türkiyədə minimum ehtiyac meyarı 4 nəfərlik ailənin yaşayış minimum əsasında hesablanır:**

- Türkiyədə yaşayış minimumu 1 nəfər üçün 11 min lirədir. Bu, Azərbaycan manatı ilə təxminən 11 min manat edir. Türkiyədə 4 nəfərlik ailənin yaşayış minimumu bu hesabla 44 min lirədir, inflyasiya səbəbindən rəqəmlər dəyişə bilir. Mövcud bazar qiymətləri nəzərə alınarsa Azərbaycanda minimum ehtiyac meyarı 1 nəfər üçün ən azı 500 manat olmalıdır. Amma təəssüf ki, hökumət ərzaq zənbilində ən aşağı həddi əsas götürür.

**Məlahət Rzayeva**

# Hər kəs mövqeyini ortaya qoya bilər

## Qanunun müzakirəsi üçün geniş imkanlar yaradılıb



**”2019-cu ilin sonlarında idarəetmə sistemində aparılan uğurlu islahatlar çərçivəsində ictimai-siyasi sektora dövlətin yeni baxışı formalaşdı”.**

Bu sözləri ”Şərq”ə açıqlamasında ”İnformasiya Təşəbbüslərinə Dəstək” İctimai Birliyinin sədri, ”QHT.az” saytının baş redaktoru Cəsarət Hüseynzadə deyib. QHT rəhbəri bildirib ki, əvvəllər bəzi məmurların intriqa və şəxsi mənafeləri ucbatından ictimai-siyasi sektorda formalaşan qeyri-sağlam münasibətlər sistemi Prezident Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsi yarandığı dövrdən tədricən aradan qalxdı. Həmin şöbə tərəfindən siyasi mövqeyi və partiya mənsubiyyətindən asılı olmayaraq cəmiyyətin bütün sağlam qüvvələri üçün müzakirə platformalarının yaradılmasına başlanıldı: ”Hesab edirəm ki, Milli Məclisdə ”Siyasi partiyalar haqqında” yeni qanun layihəsi ilə bağlı ictimai müzakirənin geniş formatda keçirilməsi bir neçə il ərzində formalaşan siyasi partiyalarla uğurlu iş mexanizminin nəticəsidir. Qanunun müzakirəsinə siyasi partiyaların, QHT-lərin, ekspertlərin cəlb edilməsi prosesin şəffaflığına, demokratik dəyərlərin əsas götürülməsinə dəlalət edir. Bu müzakirələr, eyni zamanda, siyasi iradənin mühüm göstəricisidir. Hesab edirəm ki, bu iradənin ən vacib nümunəsi 2020-ci il martın 10-da Prezident İlham Əliyev tərəfindən Altıncı çağırış Azərbaycan Respublikası Milli Məclisinin ilk iclasında göstərildi. Prezident siyasi partiyaların rolunun artırılması məqsədi ilə partiya nümayəndələrinin Milli Məclisin Komitələrində rəhbərliyə gətirilməsi ideyasını irəli sürmüşdü. Geniş ictimaiyyətin öz təklif və təşəbbüslərini irəli sürməsi üçün münbit şərait yaradılması müsbət haldır. Yeni qanunla bağlı müzakirələr açıqdır və Milli Məclisdə baş tutmuş ilk müzakirədə xeyli sayda alternativ fikirlər səsləndirildi. Qanunun bəzi maddələri ilə bağlı hakim Yeni Azərbaycan Partiyası da fikirlər irəli sürür. Bu müzakirə platforması qərarların qəbulunda ictimai iştirakçılığın təmin olunmasına imkan yaradır”.

### İslahatlar çərçivəsində ictimai-siyasi sektora dövlətin yeni baxışı formalaşıb

**C.Hüseynzadənin sözlərinə görə, qanun layihəsi digər formatlarda da ictimai müzakirələr üçün açıqdır. Bu məqsədlə cari ilin sentyabrın 7-dən qanun layihəsi Milli Məclisin saytında yerləşdirilib:** ”Milli Məclisin saytının internet istifadəçilərinə verdiyi imkan nəticəsində hər bir vətəndaş qanun layihəsinin müzakirəsində onlayn iştirak edərək, rəy və təkliflərini təqdim edə bilər. Qanunun tam və açıq mənbədə ictimaiyyətə təqdim edilməsi, eyni zamanda, media, sosial şəbəkələrdə və digər platformalarda qanun layihəsinin müzakirəsi üçün geniş imkanlar yaradıb. Siyasi partiya nümayəndələri, ekspertlər və sadə insanlar həmin alətlərdən istifadə etməklə öz fikirlərini və mövqelərini açıqlaya bilirlər. Ötən müddətdə davamlı olaraq media subyektlərində geniş ictimai müzakirələr açılmış və müxtəlif siyasi partiyaların nümayəndələri və ekspertlər tərəfindən qanunun müxtəlif maddələri ilə bağlı rəy və təkliflər səsləndirilib. Azərbaycan cəmiyyətinin, siyasi partiyaların və milli maraqlarının əks olunduğu və ictimai müzakirələr nəticəsində inkişaf etdirilmiş qanunvericilik bazası ölkəmizin yeni inkişaf mərhələsinə də öz töhfəsini verəcək”.

**İsmayıl Qocayev**

# Taxıl hara gedir, Rusiya sənəd istəyir

## Ekspert bildirib ki, Moskva anlaşmanı uzatmamaq üçün ciddi bəhanələr axtarışındadır



**Taxıl böhranının qarşısını almaq üçün, Türkiyənin də vasitəçiliyi ilə yaradılmış taxıl dəhlizinə dair razılaşmanın müddəti 19 noyabrda bitəcək.**

Hulusi Akar deyib ki, Türkiyə ”Taxıl sazişi”nin müddətinin uzadılmasının tərəfdarıdır. Onun sözlərinə görə, hətta Rusiya limanlarında olan taxılın da daşınması üçün müəyyən işlər görə bilərlər. Rusiya Xarici işlər naziri Sergey Lavrov bildirib ki, Moskva ”Taxıl sazişi”nin uzadılması imkanlarını nəzərdən keçirməzdən əvvəl onun icrası ilə bağlı bütün suallara cavab gözləyir: ”Biz ondan çıxış edirik ki, sazişin uzadılması məsələsinə baxılana qədər qeyd etdiyim bütün məsələlər qənaətbəxş şəkildə həll olunacaq”. Onun sözlərinə görə, Rusiya BMT-dən taxılın son istehlakçıya daşınması ilə bağlı statistik məlumat istəyib.

**Politoloq Məhəmməd Əsədullazadə ”Şərq”ə deyib ki, Rusiya ”taxıl dəhlizi”nin bağlanmasına çalışır. Ekspert bildirib ki, Moskva anlaşmanı uzatmamaq üçün ciddi bəhanələr axtarışındadır:**

”Ona görə də Rusiya israrla hesabat tələb edir, taxıl gəmilərinin Afrika ölkələrinə getmədiyini iddia edir və s. Astanada Rusiya Prezidenti V.Putin Türkiyə liderinə bununla bağlı öz narazılığını ifadə etmişdi. Ukraynanın uğurlu əks-hücumları Rusiyanın humanitar dəhlizləri bağlamaq istəyini daha da artırır. Əgər Xerson tamamilə ruslardan təmizlənərsə, Rusiya taxıl dəhlizini bağlamaq üçün əlindən gələni edəcək. Əlbəttə, Türkiyə bu anlaşmanın əldə olunmasında mühüm rol oynayıb və vasitəçiliyi olduqca önəmlidir. Ancaq Moskva Kiyevi danışıqlarda maraqlı olmamaqda, mühäribəni davam etdirməkdə suçlayır. Ukrayna rəhbərliyi müzakirələrə yaxınlaşmazsa, Rusiya taxıl anlaşmasının müddətini uzatmayacaq”.

**İsmayıl**



# İki əsas hədəf var, Rusiya və Çin

## ABŞ mübarizəni davam etdirəcək

**”Ağ Evin yeni milli təhlükəsizlik strategiyası ABŞ-ın iki əsas hədəfini göstərib: Rusiya və Çin”. Bunu politoloq Elxan Şahinoğlu deyib.**

Analitik deyib ki, 48 səhifəlik sənəd Amerika Administrasiyası üçün ”yol xəritəsi” mahiyyəti daşıyır: ”Bu sənəddə Rusiya imperiya ambisiyaları olan ölkə kimi, Çin sürətlə imkanlarını artıran dövlət kimi dəyərləndirilib. Sənədin mahiyyəti belədir ki, Amerika Birləşmiş Ştatları qlobal maraqları olan dünya dövləti kimi qiymətləndirilib: ”Əgər hansısa bölgə xaosa sürüklənərsə və düşmən güclərin nəzarətinə keçərsə, bu, ABŞ-ın maraqlarına mənfi təsir edəcək”. ”Düşmən güclər” dedikdə Rusiya və Çin nəzərdə tutulub. Rusiya və Çin demokratikləşə bilmədiklərinə və qonşu dövlətlərə təhlükə yaratdıqlarına görə ABŞ bu iki dövlətlə mübarizəsini davam etdirəcək. Maraqlıdır ki, sənəddə Rusiya 71 dəfə, Çin isə 55 dəfə xatırlanır. Sənəddə bir çox hallarda bu iki dövlətin ismi birgə yazılıb. Sənəddə Rusiyanın azad dünyaya ciddi təhdid yaratdığı, Çinin isə uzaq perspektivə problemlər yaradacağı vurğulanıb: ”Çin iqtisadi, hərbi və texnoloji gücü hesabına dünya düzənini dəyişə biləcəyindən əsas rəqibdir”. Sənəddə Rusiyanın dayandırılması, Çinlə isə rəqabətdə məğlub edilməsinin vacibliyi göstərilib”.

**Ekspertə görə, ABŞ Rusiya və Çinlə mübarizədə Avropa İttifaqı ilə NATO-nu da yanında görmək istəyir, ancaq bu, hər zaman alınmır:** ”Avropa ölkələrindən Çinin yatırımlarına ehtiyac olan dövlətlər var. NATO üzvləri Türkiyə və Macarıstan isə Rusiya ilə əməkdaşlıqdan imtina etmirlər. Milli təhlükəsizlik strategiyasında ABŞ-ın Ukraynaya dəstəyinin davam edəcəyi bildirilib: ”Ukrayna iqtisadiyyatının bərpasına və Avropa İttifaqı ilə inteqrasiyasına dəstək verəcəyik”. Aydındır ki, yeni strategiyaya görə, ABŞ Rusiyanın Ukraynada məğlub olmasına çalışacaq.

Beləliklə, Vaşinqton Rusiya və Çinin müxtəlif bölgələrdə maraqları ilə mübarizəsini davam etdirəcək. Vaşinqtonun Cənubi Qafqazda da fəallığı artıb. Vaşinqton Rusiyanın Cənubi Qafqazdakı təsir imkanlarını azaltmağa çalışır. ABŞ bu məqsədlə Cənubi Qafqazın 3 dövlət - Gürcüstan, Azərbaycan və Ermənistanla əlaqələrini genişləndirməyə çalışır. Bu 3 dövlətdən Ermənistan daha çox Rusiyadan asılıdır. Vaşinqton bu vəziyyəti dəyişmək üçün Ermənistan hökuməti ilə dialoqu genişləndirib. Vaşinqtonun məqsədi Ermənistanı Rusiyanın təsir dairəsindən uzaqlaşdırmaqdır”.

**İsmayıl**

# Ankara şərtlərində israrlıdır

## Finlandiyanın NATO-ya üzvlüyündə problem yoxdur, amma İsveç öhdəliyinə əməl etməlidir

**”Finlandiyanın NATO-ya üzvlüyü bu ölkənin Türkiyə ilə anlaşmasından birbaşa asılıdır”.**

**Bu sözləri ”Şərq”ə siyasi şərhçi Elçin Xalidbəyli deyib.**

Onun sözlərinə görə, Finlandiya rəsmi Ankaranın terrorçuluq fəaliyyətinə qarşı hüquqi addımların atılması ilə bağlı tələblərini yerinə yetirərsə, bu ölkə NATO-ya üzvlük şansı qazana bilər: ”Yəqin ki, Finlandiyanın Türkiyəyə göndərdiyi heyətlə bu məsələ ciddi şəkildə müzakirə ediləcək.

Əslində rəsmi Ankaranın Finlandiyaya qarşı iradları o qədər də çox deyil. Hətta həmin iradların bəziləri artıq həllini tapıb.

Ancaq bütün bunlara rəğmən rəsmi Helsinkinin hərbi alyansa üzvlüyü ətrafında qəliz situasiya mövcuddur.

Çünki Finlandiyanın məhz İsveç ilə eyni vaxtda NATO sıralarına qatılması barədə anlaşma var. Rəsmi Ankaranın isə İsveçə qarşı tələbləri daha çox və sərtdir.



Çünki terrorçular hətta İsveç parlamentində belə təmsil edilməkdədir. Türkiyə rəsmi Stokholm tələbləri tam yetirməyənə qədər bu ölkəni NATO-nun qapıları arxasında saxlamaq niyyətindədir.

Deməli, bu səbəbdən də Finlandiyanın İsveç ucbatından NATO-ya üzvlüyü gecikə bilər. Ləngimənin qarşısını almaq üçün Finlandiya və İsveçin ayrı-ayrılıqda NATO-ya üzvlük proseduruna da start vermək mümkündür. Qardaş ölkə buna çox da kəskin müqavimət göstərmir.

Ancaq İsveç və rəsmi Helsinki hələlik NATO-ya eyni vaxtda üzvlük variantında israr edirlər. Bu baxımdan, Finlandiya istər-istəməz rəsmi Stokholmun Türkiyənin müəyyən etdiyi şərt-tələbləri yerinə yetirməsinə qədər gözləməli olacaq. Yəni bu məsələnin tezliklə yekunlaşacağı hələlik o qədər də inandırıcı görünmür”.

*Qeyd edək ki, Finlandiya və Türkiyə nümayəndə heyətləri arasında görüş başlayıb. NATO-ya üzv olmaq üçün müraciət edən Finlandiya Türkiyənin Ankara şəhərinə heyət göndərib.*

**Sücayət Mehti**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

## Azərbaycançılıq ideyasının təbliği



# Unudulmaz Lider...

## Azərbaycançılıq ideologiyasının müəllifi Heydər Əliyevdir

**Cənab Prezident İlham Əliyevin müvafiq sərəncamı ilə 2023-cü il "Heydər Əliyev İli" elan olunub. Heydər Əliyev öz xalqını zamanın mürəkkəb tarixi-siyasi sınaqlarından uğurla çıxarmış və ardıcıl mübarizə apararaq onu müstəqilliyə qovuşdurmuş qüdrətli şəxsiyyətdir.**

Azərbaycan xalqı yeni əsrə və yeni minilliyə məhz Heydər Əliyev zəkasının işığında qədəm qoyub. Dövlətçilik salnaməmizdə silinməz izlər qoymuş, azərbaycanlı olması ilə ömür boyu fəxr etmiş, milli qürur və iftixar mənbəyimiz olan Heydər Əliyev bütün dünyada Azərbaycanın rəmzi kimi qəbul edilir. Davamlı yüksəliş yolunda inamla irəliləyən müasir Azərbaycan Heydər Əliyevin həyat amalının təntənəsidir. Xalqımız onun əziz xatirəsini həmişə uca tutur və minnətdarlıqla anır. 2023-cü ilin "Heydər Əliyev İli" elan olunması ulu öndərin əziz xatirəsinə ehtiramın ən yüksək səviyyədə nümayiş olunması baxımından olduqca mühüm hadisədir.

Heydər Əliyevin ölkəmizə rəhbərlik etdiyi illər xalqımızın nadir tarixi imkandan faydalanaraq, böyük əziyyətlər bahasına öz müstəqilliyini əbədi və dönməz etdiyi taleyüklü mərhələdir. Xalqın mütləq əksəriyyətinin səsini qazanaraq Azərbaycan Respublikasının Prezidenti seçilən ulu öndər ölkəmizi böyük bəlalardan, faciələrdən hifz edib, ölkəni sabitlik, iqtisadi inkişaf və tərəqqi yoluna çıxarıb, qlobal enerji-kommunikasiya layihələrini reallaşdırmaqla Vətənə sədaqətlə xidmətin əyani nümunəsini yaradıb.

Sarsılmaz əqidəyə, möhkəm iradəyə malik bir insan olan Heydər Əliyevin həyatı və çoxşaxəli fəaliyyəti hər bir azərbaycanlı üçün əsl nümunədir. O, müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu olaraq tariximizin səhifələrinə öz adını yazdı. Ümummilli liderin andiçmə mərasimində söylədiyi "Bu gün mənim üçün tarixi, əlamətdar bir gündür. Mənə göstərilən bu böyük etimada görə Azərbaycan vətəndaşlarına, Azərbaycan xalqına hörmətimi, məhəbbətimi bildirir və əmin etmək istəyirəm ki, həyatımın sonuna qədər xalqıma sədaqətlə xidmət edəcək və bütün fəaliyyətimi Azərbaycan Respublikasının gələcək inkişafına sərf edəcəyəm" sözləri öz təsdiqini əməli işdə tapıb.

**Millət vəkili Elman Məmmədovun sözlərinə görə, Azərbaycan Prezidenti İlham Əliyevin Sərəncamı ilə 2023-cü ilin Azərbaycanda "Heydər Əliyev İli" elan olunması ümummilli liderimizin xalqımız və dövlətimiz qarşısında göstərdiyi misilsiz xidmətlərə böyük ehtiramın nümunəsidir. Ulu öndər Heydər Əliyev bütün həyat və fəaliyyətini Azərbaycana və onun inkişafına, tərəqqisinə həsr edib. Bu baxımdan, dövlətimizin başçısının bu Sərəncamı xalqımız tərəfindən çox yüksək dəyərləndirilir:** "Gələn il ulu öndərin 100 illiyi tamam olur. Heydər Əliyev Azərbaycan xalqının ürəyində, Azərbaycan dövlətçiliyində xüsusi iz buraxan şəxsiyyətdir. O, Azərbaycanı ən qabaqcıl ölkələrdən birinə çevirib. 1991-ci ildə Heydər Əliyev Naxçıvana qayıtdıqdan sonra burada dirçəlişə çalışdı və Naxçıvanın ermənilər tərəfindən işğal olunmasının qarşısını aldı. Biz Heydər Əliyevin hesabına Naxçıvanı əldə saxladıq, qonşu ölkələrdən - İrandan və Türkiyədən gələn yardım hesabına ayaqda qaldıq. Prezident İlham Əliyev bu gün Heydər Əliyevin siyasətini davam etdirir. Xüsusilə, Qarabağ və Şuşa ilə əlaqədar ulu öndərin vəsiyyətini, arzusunu məhz Prezident İlham Əliyev həyata keçirdi".

**Deputat hesab edir ki, müstəqilliyimizin ilk illərində xalqımızın üzləşdiyi çətinliklər, Azərbaycanın məhv olmaq təhlükəsi ilə üz-üzə qalması bütün vətəndaşlarımıza yaxşı məlumdur. Belə bir ağır dönəmdə məhz xalqın tələbi ilə hakimiyyətə qayıdan ulu öndər xalqımızı bütün bəlalardan xilas edib:** "Tarixi, adət-ənənələri, milli fəlsəfi məfkurəni, təcrübəni və zəngin mədəniyyətimizin bütün çalarlarını özündə ehtiva edən azərbaycançılıq ideologiyasının müəllifi ümummilli lider Heydər Əliyevdir. Azərbaycançılıq ideologiyası təkcə bu dövlətin ərazisində yaşayan şəxsləri yox, eyni zamanda, bütün dünyada məskunlaşan azərbaycanlıları əhatə edən, dünya azərbaycanlılarını vahid ideologiya ətrafında birləşdirən milli məfkurəyə çevrildi. Milli ruhun yüksəlməsi, milli özünüdərkin inkişafı və xalqın tarixi yaddaşının özünə qaytarılması kimi fundamental prinsip və vəzifələrə xidmət edən azərbaycançılıq məfkurəsi dövlətin qüdrətinin artırılmasında real siyasi amil oldu. Azərbaycanda müstəqil dövlət təsisatlarının qurulması, beynəlxalq normalara söykənən demokratik, hüquqi dövlətin yaranması, milli, mənəvi və əxlaqi dəyərlərimizin qorunub saxlanması, bu dəyərlərin ümumbəşəri ideyalarla daha da zənginləşdirilməsi, ilk Milli Konstitusiyamızın qəbul edilməsi, vətəndaş cəmiyyətinin formalaşdırılması və yeni iqtisadi kursun müəyyənləşdirilməsi prosesinin müvəffəqiyyətli həlli məhz ulu öndər Heydər Əliyevin xidmətləridir. Ümummilli lider Heydər Əliyevin uğurlu siyasəti sayəsində Azərbaycan dünyada tanınan nüfuzlu bir dövlətə çevrildi.

***"Ümummilli lider bu ideya ilə cəmiyyətin həmrəylik və bütövlüyünə, mənəvi birliyinə nail oldu"***

Ulu öndər Heydər Əliyevin möhkəm təməllər üzərində əsasını qoyduğu milli maraqlara xidmət edən xarici siyasət uzaq hədəflərə hesablanmış strateji fəaliyyət konsepsiyası olmaqla, müstəqil Azərbaycanın beynəlxalq arenada nüfuz və mövqelərinin güclənməsinə, ümummilli problemlərin həllinə yönəlmişdi. Uğurlu xarici siyasət kursu nəticəsində beynəlxalq təşkilatlarla bərabərhüquqlu səviyyədə əməkdaşlıq müstəqilliyin əsas dayaqlarından birinə çevrilib. Kollektiv sənədlərə və beynəlxalq müqavilələrə qoşulan Azərbaycan özünün coğrafi mövqeyindən, təbii ehtiyatlarından, iqtisadi potensialından istifadə etməklə bir çox dövlətlər və beynəlxalq qurumlarla əməkdaşlıq edərək Böyük İpək Yolunun bərpası, Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizinin yaradılması, Xəzərin karbohidrogen ehtiyatlarının işlənməsi və dünya bazarına çıxarılması layihələrini səmərəli şəkildə həyata keçirir".

"Ulu öndər daim vurğulayırdı ki, azərbaycançılıq ideologiyası real müstəqilliyə nail olmaq, vahid, bölünməz Azərbaycanı qoruyub saxlamaq və möhkəmləndirmək üçün vasitədir. Heydər Əliyevin fəlsəfi baxışlarına görə, azərbaycançılıq milli mənsubiyyəti, milli-mənəvi dəyərləri qoruyub saxlamaq, eyni zamanda, onların ümumbəşəri dəyərlərlə sintezindən, inteqrasiyasından bəhrələnmək deməkdir. Xalqımızın milli-mənəvi dəyərlərini həm müdafiə etməyi, həm də qoruyub saxlamağı bacaran, dövlətlə vətəndaşların mənafeyini üzvi şəkildə birləşdirən azərbaycançılıq ideologiyası ölkədə vətəndaş birliyi və vahid sosium üçün uğurlu təməldir. "Hər bir insan üçün milli mənsubiyyəti onun qürur mənbəyidir. Həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam. Müstəqil Azərbaycan dövlətinin əsas ideyası azərbaycançılıqdır. Hər bir azərbaycanlı öz milli mənsubiyyətinə görə qürur hissi keçirməlidir və biz azərbaycançılığı - Azərbaycan dilini, mədəniyyətini, milli-mənəvi dəyərlərini, adət-ənənələrini yaşatmalıyıq", - deyən Heydər Əliyev dühası azərbaycançılığı milli ideologiyaya çevirməklə cəmiyyətin həmrəylik və bütövlüyünə, mənəvi birliyinə nail olub" - deyə millət vəkili əlavə edib.

**E.Məmmədovun fikrincə, azərbaycançılıq ideologiyası dünya azərbaycanlılarının vahid ideya ətrafında birləşməsini şərtləndirən tarixi-siyasi amillərin təsnifatını, xaricdə yaşayan soydaşlarımızın hüquq və azadlıqlarının qorunması sahəsində dövlətin qarşısında duran vəzifələri, onların Azərbaycana münasibətdə üzərinə düşən mənəvi öhdəlikləri, habelə azərbaycanlı anlayışının sosial-fəlsəfi məzmununu müəyyənləşdirən konsepsiyadır:** "Azərbaycançılıq millətindən asılı olmayaraq, özünü azərbaycanlı sayan vətəndaşların həmrəyliyi üçün möhkəm istinad mənbəyi, ideoloji bünövrədir. Bu ideologiyanın pozitiv xarakteri həm də bütün dünyaya səpələnmiş 50 milyondan artıq azərbaycanlını vahid ideallar naminə səfərbər etmək qüdrəti ilə müəyyən olunur. Milli-mənəvi, islami-əxlaqi, dünyəvi-humanitar dəyərləri, Şərq və Qərb mədəniyyətlərinin dialoqunu, türkçülük və avropaçılıq meyillərini, tarixi təkamüldə varislik və tərəqqiçiliyi, ünsiyyət birliyini ahəngdar şəkildə ehtiva edən azərbaycançılıq ideologiyası məhz buna görə də müxtəlif coğrafi regionlarda, sosial-siyasi sistemlərdə, mədəni mühitlərdə formalaşmış diasporumuz üçün cəlbedicidir".

**Şəymən Bayramova**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub

ŞƏRQ
Müstəqil ictimai-siyasi qəzet
26 oktyabr 2022-ci il (çərşənbə)


# 2 ilə 262 mina qurbanı!

## “Bu, Ermənistanın ölkəmizə qarşı hərbi cinayətidir”




**2020-ci ildə Qarabağ müharibəsindən indiyədək 262 nəfər mina qurbanı olub.**

**Bu barədə Xarici İşlər Nazirliyi ”Twitter” səhifəsində paylaşım edib.**

Paylaşımda bildirilib ki, Ermənistan tərəfindən basdırılmış minanın daha bir fəsadı. Tərtər rayonunda minanın partlaması nəticəsində 26 yaşlı mülki şəxs yaralanıb. Təəssüf ki, onun hər iki ayağı amputasiya olunub. 2020-ci il müharibəsinin sonundan bəri mina qurbanlarının sayı 262 nəfərə çatıb. Ermənistanın cəzasızlığı yeni cinayətlərə yol açır:

**Vəziyyəti ”Şərq”ə dəyərləndirən ”Editor.az” saytının baş redaktoru, jurnalist Fərid Şahbazlı vurğulayıb ki, Ermənistan həm torpaqlarımızın işğalı vaxtı, həm də işğaldan sonrakı böyük qələbə zamanında, Azərbaycana qarşı xeyli hərbi cinayətə yol verib:** ”Onlar uzun müddətdir mina xəritələrini bizə tam şəkildə təqdim etmirlər. Təqdim etdiyi bir neçə xəritənin isə əksəriyyəti həqiqətən uzaqdır. Bunun nəticəsində də 262 nəfər Azərbaycan vətəndaşı minaya düşüb. Onların arasında ölənlər də var, yaralananlar da. Bu istiqamətdə həm hüquqi, həm də ictimai-diplomatik zəmində ciddi fəaliyyət həyata keçirilməlidir. Ölkənin müvafiq dövlət orqanları bu yöndə iş aparır və aparmağa davam etməlidir. Beynəlxalq məhkəmələrə müraciət edilərək, Ermənistanın yol verdiyi müharibə cinayətlərinə qiymət verilməsi tələb olunmalıdır.

Ermənistanın mülki şəxslərə qarşı həyata keçirdiyi bu terroru, dünya ictimaiyyətinə çatdırmaq çox vacibdir. Bu istiqamətdə xarici KİV-lər və beynəlxalq təşkilatlarla yaxından əməkdaşlıq edilməli və ermənilərin mənfur siyasəti ifşa olunmalıdır. Bu gün sülhdən və humanizmdən danışan bir ölkənin bilərəkdən, Azərbaycanın mülki əhalisini mina təhlükəsi ilə üz-üzə qoyması isə beynəlxalq hüququn normalarının pozulmasıdır. Biz bu məsələni tez-tez gündəmə gətirməli və Ermənistana təzyiq edilməsi üçün addımlar atmalıyıq”.

F.Şahbazlı qeyd edib ki, vətəndaşlarımız arasında maarifləndirmənin aparılması çox vacibdir: ”Biz həmvətənlərimizin 30 illik həsrətdən sonra, öz dədə-baba yurdlarını görmək istəklərini yaxşı başa düşürük. Ancaq onlar da başa düşməlidirlər ki, minalı bölgələrə icazəsiz səfərlər, həyatları bahasına başa gələ bilər. Onlar heç o bölgələri görmədən həyatlarını itirə bilərlər. Bu istiqamətdə də media və ayrı-ayrı təşkilatlar tərəfindən geniş maarifləndirmə işləri aparılmalıdır. Hesab edirəm ki, bu addımların hər biri paralel şəkildə həyata keçirilməlidir”.

**Nihat Müzəffər**

# “Şuşa” qəzetinin 90 yaşı oldu

## “Gün gələr Şuşada yenə nəşrə başlayarıq”




**Əslən Şuşadan olan həmkarımız Kəmalə Cahidqızı feysbuk səhifəsində ”Şuşa” qəzetinin yubileyi ilə bağlı paylaşım edib. Təəssüf ki, kədərli paylaşımdır. ”Şuşa”nın yubileyinin təntənəli şəkildə, paytaxtın və ya mədəniyyət paytaxtımızın hansısa təmtəraqlı salonlarından birində qeyd edildiyi xəbərinə də rast gəlmədik dünənki informasiyalar arasında.**

”Şuşa”lıları üzür bu biganəlik. Kəmalə xanım da elə bu biganəlikdən yazıb: ”Bəli, ”Şuşa”mızın 90 yaşı oldu. ”Şuşa” qəzeti təcrübəli, peşəkar jurnalistlərin mətbu orqanı idi. İmzası ölkə mediasında kifayət qədər tanınan jurnalistlər yetirdi. 1988-1992-ci illərdə ölkədə senzuranın tüğyan etdiyi bir zamanda Qarabağ həqiqətlərini ölkəyə, bəzən ölkədən kənara çatdırmaq üçün ”Şuşa” qəzetinin əməkdaşları son günə - 1992-ci ilin 8 mayına qədər raket, top atəşləri altında işlədilər, fədakarcasına şəhəri tərk etmədilər. Əslində ”ŞUŞA” 90 yaşı daha təntənəli şəkildə qeyd edilməyə layiq idi. Təəssüf, heç edilmədi... Heç bir tədbir keçirilmədi. Çox yerlərə çox müraciətlər etsəm də... ”Şuşa” qəzetinin müharibə dövründəki fəaliyyətini əks etdirən yeganə layihəni - Şuşadakı faciələrin şahidi jurnalistlər danışır - layihəsini ərsəyə gətirən Ayaz Mirzəyevə, eləcə də Zəka Quliyevə, Zaur Hacıyevə dərin təşəkkürlər.... 16 dəqiqəlik film əslində çox mətləblərdən bəhs edir, vaxtı və həvəsi olanlar buyurub izləyə bilər...”

Kəmalə Cahidqızı qeyd edib ki, ”Baku TV”də yayımlanan filmi ”Şuşa” qəzetinin əməkdaşları yaradıcı qrupla birgə, öz təşəbbüsləriylə reallaşdırıblar. Film ”Şuşa” qəzetinin 90 illiyinə qəzet əməkdaşlarının hədiyyəsidir. ”Biz hər gün ölüb dirilirdik” deyən jurnalistlər şəhərdə baş vermiş hadisələri, blokadada olan şəhərin direnişini, yerli özünümüdafiə batalyonu döyüşçülərinin igidliyindən danışırlar. ”Şuşa ili”ndə ”Şuşa” qəzetinin yubileyinin qeyd edilməməsi təəssüf doğurur. Amma yenə də ”Şuşa” qəzeti Şuşa şəhərinin özü kimi məğrur qarşılayır, laqeydliyi. Şuşalı jurnalistlərin dediyi kimi ”gün gələr Şuşada yenə nəşrə başlayarıq, yubileyimizi də bir qədər geciksə də, Şuşada qeyd edərik”. ”Şuşa”mızın 90 yaşı mübarək olsun!

**Məlahət Rzayeva**




# Sahibsiz itlərin sayı günbəgün artır

## Qazaxda üç ay ərzində 700 sakini it dişləyib

**Qazax rayonunda son üç ayda 700 sakin sahibsiz itlərin hücumuna məruz qalıb.**

Sonuncu belə hadisə Qazax şəhərindəki küçələrdən birində baş verib. Gündüz saatlarında küçə ilə hərəkət edən yaşlı qadına sahibsiz itlər hücum edib. Yaxınlıqdakı şəxslər qadını küçə itlərinin əlindən alıb. Xəsarət alan qadın xəstəxanaya yerləşdirib, tibbi yardım göstərilib.

Sakinlərin sözlərinə görə, Qazax rayonunda sahibsiz itlərin sayı günbəgün artmaqdadır. Son zamanlar it dişləməsi faktları da çoxalıb. Təkcə son 3 ay ərzində 700-ə yaxın sakin sahibsiz itlərin hücumuna məruz qalıb.(apa)

Qazax Rayon Mərkəzi Xəstəxanasından verilən məlumata görə, it dişləməsi diaqnozu ilə xəstəxanaya müraciətlər artıq gündəlik hal alıb. Sakinlər sahibsiz itlərin artmasını məişət tullantıları qablarının azlığı ilə əlaqələndirirlər. Belə ki, toplanan tullantılar həm də itlərin yem mənbəyi rolunu oynayır, nəticədə sahibsiz itlər parklarda, bağlarda kütləvi şəkildə artaraq təhlükə mənbəyinə çevrilir.

# “AYB-nin gənc imzalarla bağlı siyasətindən çox narazıyam”

## Emil Rasimoğlu: “Əgər seçilərəmsə ilk dəyişəcəyim sistem idarəçilik prinsipi, digər rəhbər heyəti olacaq”

**Azərbaycan Yazıçılar Birliyinin növbəti qurultayında sədrlik postuna yeni namizədlər bəlli olub. Şair Emil Rasimoğlu və Fuad Cəfərli qurultaya namizəd olaraq qatılacaqlarını bəyan ediblər.**

AYB-nin indiki sədrinin öz vəzifələrini doğru icra etmədiyini vurğulayan Emil Rasimoğlu ”Şərq”ə müsahibəsində deyib ki, hazırda Azərbaycan Yazıçılar Birliyindəki sistem AYB rəhbərliyinin maraqları naminə idarə olunur, daxili nizamnamə qaydaları isə kənarda qalıb. Təsəvvür edirsinizmi? Bir insanın alternativsiz şəkildə seçkiyə getməsinə yol açalar, onun əvəzolunmazlığını təbliğ edələr və sonda da deyələr ki, yekdilliklə səs topladı. Hansı ki öncəki qurultaylarda bu hallar olub.

**- AYB-nin atdığı hansı addımları yanlış hesab edirsiniz?**

-Konkret olaraq, bölgələrdəki fəaliyyətindən və AYB-nin gənc imzalarla bağlı siyasətindən çox narazıyam. Yazıçılar Birliyinin əyalətlərdəki filialları, sektorları, tabeçiliyində olan orqanların fəaliyyəti bərbad durumdadır. Digər tərəfdən, Anar gənclik deyə bir məfhum tanımır. Çünki gəncliyin yanında olmağı bacaran şəxs hələ ilk olaraq özü gəncliyin yolunu kəsməməlidir.



**- Namizəd olmaq qərarınızdan danışaq bir az...**

- AYB-nin qurultayında sədrliyə namizəd olmaq barədə qərarına o zaman gəldim ki, mən Azərbaycan Yazıçılar Birliyində modern idarəçilik prinsipini, özündən sonrakı nəsillə, potensiallı, istedadlı gəncliklə səsləşməni, onları tanımanı, formallıqdan uzaq mexanizmi görmədim.

**- Bəs, qurultaydan gözləntiniz nədir?**

- Bilirsiniz, bu gün çox acınacaqlı bir vəziyyət yaranıb. Ədəbi mühit sanki bir köləlik, iradəsizlik sindromu yaşayır. Yazıçı, şair olasan, amma sözün, iradən, mövqeyin, içindəki həqiqətin həbs oluna və ya onu özün həbs etməyə səni vadar edələr. Bu, dəhşət məsələdir... Mən bu fikirləri hələ öncə onların mənim tutduğum yolu, namizədliyimi niyə dəstəkləmirlər deyə demirəm, ümumi durumu görüb deyirəm. Ola bilər, Emil Rasimoğlunu namizəd kimi qəbul etməyəsən, fikirləri ilə barışmayasan. Bu təbiidir, o zaman özün bir şəxsi namizəd kimi təqdim et. Yetər ki, bir sədrlik postuna 35 il sahiblənən, rəhbəri olduğu qurumun fəaliyyətini acınacaqlı duruma gətirən, onu öz maraqları çərçivəsində idarə edən şəxsə yenidən üz tutma.

Bu baxımdan mənim bu saat ən böyük gözləntim özümdəndir. Mənim üçün real olan da məhz budur. Çünki mənim reallığımın arxasında həqiqətlər dayanır.

**- Əgər seçkidə Anara qalib gəlsəniz AYB-də ilk nəyi dəyişəcəksiniz?**

- Əgər seçilərəmsə ilk dəyişəcəyim sistem idarəçilik prinsipi, digər rəhbər heyəti olacaq. Onu da əlavə edim ki, mən İntiqam Qasımzadə, Vaqif Əlixanlı kimi iş fəaliyyəti donmuş, Azər Turan kimi prinsipsiz insanlara heç vaxt hər hansısa məsul vəzifəni həvalə etmərəm. O qurumda uzaqlaşdırılası şəxslər, görüləsi işlər çoxdur.

**Şəymən Bayramova**

# Bayrağımızı təhqir edənlər məsuliyyətə cəlb olunmalıdır

## Çingiz Qənizadə: "Əgər süpürgə ölkəmizdə istehsal olunubsa, bu, konkret həmin sahibkarın savadsızlıq və qanmazlıq göstəricisidir"





**Sosial şəbəkələrdə İsmayıllı rayonunda Azərbaycan bayrağının rəngləri ilə boyanmış süpürgənin satılması tənqidlərə səbəb olub.**

İsmayıllı rayonunda yaşayan sakinlərdən biri mağazadan alıb gətirdiyi süpürgəyə diqqət yetirəndə təəccüblənib. Süpürgə Azərbaycan bayrağının rənglərinə uyğun boyanıb. Həmin süpürgənin harada istehsal olunduğu, hansı səbəbdən məhz həmin rənglərdə boyandığı, İsmayıllıda satıldığı mağazaya necə gəlib çıxdığı məlum deyil.

Hüquq-mühafizə orqanları artıq məsələ ilə bağlı araşdırmalara başlayıb. Daxili İşlər Nazirliyinin Mətbuat Xidmətinin regional qrupundan bildirilib ki, İsmayıllı rayonunda bayraq rənglərinin əks olunduğu süpürgənin satıldığı ünvan müəyyən olunub. İsmayıllı Rayon Polis Şöbəsində araşdırmalar davam etdirilir.

**Demokratiya və İnsan Hüquqları Komitəsinin sədri, hüquq üzrə fəlsəfə doktoru Çingiz Qənizadənin sözlərinə görə, dövlət atributlarının qorunması ilə bağlı qanunvericilikdə müddəalar var. Dövlət bayrağımız da bu atributlardan biridir. Bayrağımızı təhqir edənlər məsuliyyətə cəlb olunmalıdır:** "Azərbaycan bayrağının rəngləri ilə boyanmış süpürgənin satmaq vətənpərvərlik göstəricisi deyil. Bayraq rənglərindən paltar tikdirmək, pərdə kimi müxtəlif obyektlərin pəncərəsindən asmaq yolverilməzdir və dövlət atributlarından heç bir halda şou predmeti kimi istifadə etmək olmaz. Əgər süpürgə ölkəmizdə istehsal olunubsa, bu, konkret həmin sahibkarın savadsızlıq və qanmazlıq göstəricisidir. Çox təəssüflər olsun ki, Azərbaycanda istehsala nəzarət aşağı səviyyədədir. Sovet dövründə malların üzərində "keyfiyyət nişanı" olurdu. Bu gün isə kim nə istəyir onu da istehsal edib satışa buraxır. Əgər bu süpürgə ölkəyə hansısa ölkədən idxal olunubsa, burada bayrağımıza qarşı təxribat amili ön plana çıxarılmalıdır. Yox əgər hansısa sahibkar tərəfindən istehsal edilibsə, bunun bilərəkdən olduğunu zənn etmirəm. Dediyim kimi, bu, sadəcə cahillikdir. Hər halda DİN-in araşdırmalarından sonra hər şey bəlli olacaq".

**Şəymən**




# TikTok-a qoyulmuş qadağalar aradan qaldırılmalıdır

"İnsanlar VPN istifadəsi ilə platformaya axın edir, bu da məlumatları daha da təhlükəyə atır"

**"Azərbaycanda TikTok qadağası hələ də davam edir. TikTok-un Azərbaycanda bloklanması müvəqqəti xarakter daşıyırdı. Platformanın bloklanması döyüş bölgəsindən həssas məlumatların yayımlanması ilə bağlı idi".**

*Texnobloqer, Mətbuat Şurasının İdarə Heyətinin üzvü Fərid Pərdəşünas deyib ki, sentyabr hadisələrindən sonra platforma bağlı olaraq qaldı. Blokun hələ də davam etməsi ola bilsin ki, bölgədə hələ də düşmənin vaxtaşırı təxribatlar törətməsi ilə bağlıdır:* "Yəni hər an ortaya həssas materiallar çıxa bilər. Lakin əlimizdə olan statistikalar göstərir ki, insanlar VPN istifadəsi ilə platformaya axın edir. Bu da məlumatları daha da təhlükəyə atır. Paralel olaraq TikTok üzərində fəaliyyəti olan brendlər, agentliklər əziyyət çəkirlər və fəaliyyətsiz qalıblar. Belə olan halda platformaya tətbiq olunan qadağanın aradan qaldırılmasının doğru yol olduğunu düşünürəm".

**Şəymən**

# İcbari tibbi sığortaya ayrılan vəsaitin artırılması, əlbəttə, sevindiricidir

## Çünki artırılan hər 1 manat hansısa vətəndaşın müalicə xərclərinin qarşılanmasına kömək edəcək

**Gələn il Azərbaycanda səhiyyə sahəsinə ayrılacaq vəsait açıqlanıb. Bu barədə Milli Məclisə daxil olmuş "Azərbaycan Respublikasının 2023-cü il dövlət büdcəsi haqqında" qanun layihəsində qeyd edilib. Qanun layihəsində gələn il səhiyyəyə 1 906 389 453,0 manat vəsait ayrılması proqnozlaşdırılır.**

Poliklinikalar və ambulatoriyalar üçün 1 802 885,0 manat, xəstəxanalar üçün 171 384 285,0 manat ayrılması nəzərdə tutulur. Qeyd edək ki, 2023-cü il üçün dövlət büdcəsinin gəlirləri 30,7 milyard manat proqnozlaşdırılır ki, bu da ölkə tarixinin ən yüksək göstəricisi olmaqla, 2022-ci illə müqayisədə 5,2 faiz, 2021-ci illə müqayisədə isə 16,4 faiz çoxdur. Həmçinin növbəti il üçün icbari tibbi sığorta fonduna ayrılacaq vəsaitin miqdarı da açıqlanıb. Qanun layihəsinə görə, gələn il tibbi sığorta fonduna 1 263 820 170,0 manat vəsait ayrılması proqnozlaşdırılır.

Qeyd edək ki, 2022-ci ilin dövlət büdcəsində səhiyyə sahəsinə 1 milyard 788 milyondan artıq, icbari tibbi sığortaya isə 1milyard 125 milyon 674 min 629 manat vəsait ayrılmışdı. 2023-cü il üçün icbari tibbi sığortaya ayrılan vəsait builki məbləğdən təqribən 138 milyon 146 min manat artıqdır. Vəsaitin artırılması icbari tibbi sığorta paketinin də zənginləşməsinə səbəb olacaqmı?

**Həkim-infeksionist Mərdan Əliyev "Şərq"ə açıqlamasında qeyd etdi ki, dövlət büdcəsinin gəlirləri artdıqca sosial sahələrə, o cümlədən səhiyyəyə və təbii, İcbari Tibbi Sığorta Fonduna ayrılacaq vəsaitlərin məbləği də artır:**

- Bu, təbii prosesdir. Azərbaycan dövləti sosial yönümlü layihələrə daha çox üstünlük verir və səhiyyəyə ayrılan vəsait ilbəil artır. O cümlədən icbari tibbi sığorta vəsaitlərinin də hər il artacağı gözlənilir. Lakin məsələ, təkcə dövlət büdcəsindən ayırmalarla məhdudlaşmamalıdır. Xarici ölkələrdə, qardaş Türkiyədə bu təcrübə illərdir uğurla davam etdirilir. İcbari tibbi sığorta vəsaitləri təkcə dövlətin üzərinə düşmür. İri müəssisələr, holdinqlər, şirkətlər, müxtəlif fondlar, yerli bələdiyyələr icbari tibbi sığortanın müəyyən hissəsini öz üzərinə götürür, xərcləri qarşılayır. Burada ianələr də böyük rol oynayır. Eləcə də əmək haqqından tibbi sığortaya tutulan sosial ödəmələr hesabına da sığorta fondunun vəsaitləri artır. Əslinə qalsa, icbari tibbi sığorta fondunun əsas gəliri sığorta haqlarından olmalıdır. Bunun sayəsində də həkimlərin əməkhaqqı ödənməli, xəstəxana xərcləri qarşılanmalıdır. Hazırda Azərbaycanda İcbari Tibbi Sığorta Fondunun vəsaitləri müalicə xərclərinə nə dərəcədə kifayət edir, əhalinin nə qədər hissəsini əhatə etməyə qadirdir, deyə bilmərəm. Bu, maliyyəçilərin işidir. Lakin icbari tibbi sığortaya ayrılan vəsaitin artırılması, əlbəttə, sevindiricidir. Çünki artırılan hər 1 manat hansısa vətəndaşın müalicə xərclərinin qarşılanmasına kömək edəcək.





*Mərdan Əliyev: "Lakin icbari tibbi sığorta vəsaitləri təkcə dövlətin üzərinə düşməməlidir. İri müəssisələr, holdinqlər, şirkətlər, müxtəlif fondlar, yerli bələdiyyələr icbari tibbi sığortanın müəyyən hissəsini öz üzərinə götürür, xərcləri qarşılayır"*

**M.Əliyev qeyd etdi ki, İcbari Tibbi Sığorta Fondunun vəsaitlərinin artırılması sığorta paketinə daha çox xəstəliklərin daxil edilməsini şərtləndirə bilər:**

- Ağır gedişatlı xəstəliklər var ki, onların müalicəsinin icbari tibbi sığorta paketinə daxil edilməsi zəruridir. Məsələn, onkoloji xəstəliklər. Məlumdur ki, onkoloji xəstəliklər həm də sosial xəstəlik hesab olunur. Bu səbəbdən ki, onun müayinə və müalicəsi heç də hər kəsin maddi imkanları daxilində deyil. Onkoloji xəstəliklərin müayinəsi də çox bahadır, müalicəsi, əməliyyatlar da. Ona görə də onkoloji xəstəliklərin bütün növləri icbari tibbi sığorta paketinə mütləq daxil edilməlidir. Bu həm xəstələrə, həm də onların ailələrinə maddi kömək öz yerində, həm də mənəvi dəstək olar.

**M.Əliyev süni mayalanmanın da icbari tibbi sığorta paketinə daxil edilməsini gözlədiyini dedi:**

- Sonsuzluq da son illərdə problem həddinə çatır. Bir çox gənc ailələr bu problemdən əziyyət çəkir. Süni (ekstokarporal) mayalanma böyük vəsait tələb edir. Bu mənada ki, müalicənin bəzən bir dəfə deyil, iki, hətta 3 dəfə aparılması zərurəti yaranır. Bir çox ailələrsə tələb olunan məbləği ödəyə bilmədiklərindən proses yarımçıq qalır. Bu məsələdə ortaq fikrə gəlmək mümkündür. İxtisas həkimlərinin rəyi ilə, orqanizmin müalicəyə hansı dərəcədə reaksiyasından asılı olaraq prosesin davam etdirilməsi, yaxud sonlandırılmalı olduğu müəyyənləşməlidir. Bu müddət ərzində isə pasiyentlərə lazımi müalicə dövlət vəsaiti hesabına tətbiq edilməlidir.

*M.Əliyev bildirdi ki, hazırda icbari tibbi sığorta paketinə bir çox xəstəliklərlə yanaşı, ağır cərrahi əməliyyatlar da daxildir. Məsələn, ürək-damar sistemi, neyrocərrahiyyə kimi 5-10 min manat dəyərində əməliyyatların icbari tibbi sığorta çərçivəsində həyata keçirildiyi xəstəxanalarımız var.* Amma əlbəttə, arzuolunandır ki, icbari tibbi sığorta paketinə daxil edilən xəstəliklərin siyahısı artsın və ağır gedişatlı, kifayət qədər böyük məbləğlərdə müalicə xərcləri tələb olunan xəstəliklər də sığorta zərfinə daxil edilsin.

**Məlahət Rzayeva**

# Bu il “informatika” ilə bağlı ölkədə yeni mühit formalaşıb

## Maraqlı tərəflərin iştirakı ilə ictimai müzakirələr təşkil etmək zamanıdır




**Oktyabrın 25-də ”Rəqəmsal bacarıqlar” layihəsinin 5 illik fəaliyyətinə həsr olunmuş hesabat tədbiri keçirilib. Layihə Elm və Təhsil Nazirliyi (ETN) ilə ”Alqoritmika” beynəlxalq təhsil şirkəti tərəfindən gerçəkləşir. Əsas məqsəd ”İnformatika” fənninin tədrisinin təkmilləşdirilməsi və tədris prosesində yeni yanaşmanın tətbiqidir.**

”Rəqəmsal bacarıqlar” layihəsi hazırda 48 şəhər və rayonda yerləşən 418 məktəb üzrə 2-9-cu siniflər olmaqla 300 min şagirdi və 3000-dək müəllimi əhatə edir. Ötən ildən etibarən şagirdlərin informasiya texnologiyaları peşələrinə hazırlanması, veb-tərtibat, 3-D modelləşdirmə, kodlaşdırma, sistemlərin avtomatlaşdırması, ”Smart city”, robototexnika, həmçinin ”Scratch” və ”Python” proqramlaşdırma dilləri üzrə dərin biliklərin aşılanması və praktik tətbiqi məqsədilə ”Rəqəmsal bacarıqlar” təmayül 10-11-ci sinifləri yaradılıb. Ötən tədris ili pilot 11 məktəbdə 300-dən çox şagird təkmilləşdirilmiş proqram üzrə informatika təmayüllü tədrisə cəlb olunubsa, bu rəqəm 2022-2023-cü tədris ilindən 20 məktəbdə 720 şagirdə çatıb.

**”Rəqəmsal bacarıqlar” layihəsini ”Şərq”ə dəyərləndirən Azərbaycan İnternet Forumunun Prezidenti Osman Gündüzün qənaətincə, elmi-texniki biliklərinin, eləcə də robotexnika və rəqəmsal bacarıqların inkişafı, ümumiyyətlə, informatikanın tədrisinin yaxşılaşdırılması sahəsində ETN-in səyləri təqdirəlayiqdir. Lakin hələ də bu layihənin mahiyyəti və uğurları qaranlıq qalıb:** ”Layihənin əhəmiyyəti barədə Rusiyaya məxsus ”Alqoritmika” şirkətinin öz ölkəsindəki və digər ölkələrdəki təhsil yönümlü fəaliyyəti ilə bağlı müxtəlif ziddiyyətli fikirlər mövcud olub.

Layihə çərçivəsində hazırlanan resurslar və əldə olunan konkret uğurlar haqqında indiyədək müvafiq məlumatlarla qarşılaşmamışam.

Həmçinin layihə çərçivəsində maraqlı tərəflərin iştirakı ilə hansısa bir ictimai müzakirə də təşkil edilməyib. Bu il ”informatika” ilə bağlı ölkədə yeni mühit formalaşıb.

Artıq ”İnformasiya Texnologiyaları” (İT) ixtisası seçənlər ”kimya” fənnindən yox, ”informatika”dan qəbul imtahanı verəcəklər.

Qarşıdakı mərhələdə ”informatika”nın tədrisi ilə əlaqədar vəziyyəti qiymətləndirməkdən ötrü daha real və güvənli data formalaşacaq.

DİM ”informatika”dan qəbul imtahanları zamanı ”Rəqəmsal bacarıqların” kontentini deyil, dərsliklərini nəzərdə tutacağını açıqlayıb.

Ümid edirəm, ETN layihə, konkret uğurlar və resurslarla bağlı ətraflı və ağlabatan açıqlamalar verəcək, maraqlı tərəflərin iştirakı ilə ictimai müzakirələr təşkil edəcək.

Yeri gəlmişkən, ötən həftə robotexnika sahəsində daha bir beynəlxalq olimpiada başa çatıb.

Bu il 13-16 oktyabr tarixlərində Cenevrədə təşkil olunan ” FIRST Global Challenge” olimpiadası robotların yaradılması və proqramlaşdırma sahəsində olimpiada tipli beynəlxalq yarışmadır. Yarışmada 180 ölkə iştirak edib. O cümlədən Azərbaycan da yarışmaya qatılıb. Təəssüf, komandamız sözügedən yarışmada uğur qazana bilməyib”.

**Aygün Tahir**

# “Arəstə Baxışovanı nümunəvi obraza çevirmək medianın vəzifəsidir”

## Aynur Camalqızı: “Şəhid qadının fəaliyyəti, ailəsi və övladlarını diqqətdən kənarda qoymamalıyıq”



**”Arəstə Baxışova 44 günlük müharibənin yeganə qadın şəhididir. İlk növbədə, media olaraq, şəhid xanıma lazımi səviyyədə diqqət göstərməli idik”.**

*Bu sözləri ”Şərq”ə açıqlamasında ”Teleqraf Holdinq”in rəhbəri Aynur Camalqızı deyib. Jurnalistin sözlərinə görə, şəhid xanımın barəsində media nümayəndələrinin kifayət qədər məlumatı yoxdur:* ”A.Baxışovanın evinə gedib, ailəsi, övladları ilə bağlı yazılar hazırlamaq lazımdır. Ailə üzvlərindən müsahibə götürmək olar. Şəhid xanımın xidməti dövlət səviyyəsində təbii ki, qiymətləndirilib.

Amma Azərbaycan qadınları üçün nümunəvi obraza çevirmək medianın vəzifəsidir. Sözün düzü, bu xanım barədə sual ünvanlanarkən təmsil olunduğum media orqanlarında Arəstə xanım haqqında hansı materiallar dərc olunduğunu xatırlamağa çalışdım.

Lakin görünən odur ki, yalnız rəsmi məlumatlar mövcuddur. Eyni zamanda bir neçə köşə yazısında adının çəkilməsi ilə kifayətlənilib. Şəhid qadının fəaliyyəti, ailəsi və övladlarını diqqətdən kənarda qoymamalıyıq. Hesab edirəm ki, onun anası ilə müsahibə maraqlı alınar. A.Baxışova barədə əlimizdən gələni etməliyik ki, borcumuzu yerinə yetirə bilək”.

*Qeyd edək ki, Azərbaycan Ordusunun çavuşu olan hərbi feldşer Arəstə Baxışova 2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsi zamanı Füzulinin, Zəngilanın və Qubadlının azadlığı uğrunda gedən döyüşlərdə yaralı hərbçilərə tibbi yardım göstərib. O, oktyabrın 23-də Qubadlı döyüşləri zamanı şəhid olub.*

*Biləcəri qəsəbəsinin Şəhidlər Xiyabanında torpağa tapşırılıb. 44 günlük müharibə dövrünün 1 aya yaxın müddətini əsgərlərimizlə birgə çiyin-çiyinə düşmənə qarşı vuruşub. Lakin sözügedən qəhrəman şəhidimiz sanki müəyyən qədər diqqətdən kənarda qalıb. Onun barədə az sayda yazılar, məqalələr, paylaşımlara rast gəlinir.*

**Sücayət Mehti**

# Yumurtanın tarixini 1 gün sonraya yazıblar!

## İstehlakçıların hüquqları pozulur, nəzarət zəifdir



**”Malları ”ölməz” etmək, onların yararlılıq müddətini uzatmaq istehsalçıların daim diqqətindədir”.**

**Bu sözləri Azad İstehlakçılar Birliyinin (AİB) sədri Eyyub Hüseynov ”Şərq”ə deyib. O bildirib ki, standartların tələblərini müxtəlif yollarla pozmağa çalışırlar:** ”Vaxtı keçmiş məhsulun yararlılıq müddətini artırmaq üçün indiyə nisbətən əvvəllər çox cəhdlər olurdu. Bir neçə professor bir araya gəlirdi. Məni də dəfələrlə dəvət etməklərinə baxmayaraq, 25 il ərzində heç vaxt getmədim. Pul təklifi ilə protokol yazaraq, hər hansı bir məhsulun istifadə vaxtını uzadırlar.

Yumurtanın tarixinin də 1 gün sonraya yazılması həmin üsullardan biridir. Hətta fevralın 30-da belə məhsul istehsalı hallarına rast gəlmişik.

Bütün bunlar istehlakçıların hüquqlarının pozulması, aldadılması hallarına gətirib çıxarır. Çox təəssüf ki, dövlət orqanları bu işlərə ciddi nəzarət edə bilmir. Ən yaxşı diqqəti ictimai rəy və media nümayəndələri göstərir. Gərək belə vəziyyətlərdə Azərbaycan Qida Təhlükəsizliyi Agentliyi (AQTA) yerində monitorinq təşkil etsin. Əməkdaşları malları yoxlasın.

Müştərilərini itirmək istəməyən mağazalar belə malı istehlakçılara təqdim etməli deyillər. Yumurtaların markalanaraq, satışa çıxarılması müsbət cəhətdir. Böyük əksəriyyəti isə tarix yazılmadan bazara girir. Bu da müəyyən formada tənzimlənməlidir. 7 günə qədər yumurta dietik adlanır.

Ən yaxşı yumurta hesab olunur. Sonrakı günlərdə isə ona mətbəx yumurtası deyilir. Bəzən nümayişə görə, vitrinə böyük ölçüdə yumurtalar qoyurlar və satış üçün nəzərdə tutulmadığını deyirlər. İstehlakçının isə məhz reklam olunan yumurtanı almaq hüququ var”.

*Qeyd edək ki, sosial şəbəkələrdə yumurtanın istehsal tarixinin 1 gün sonraya yazılması müzakirələrə səbəb olub və tənqid hədəfinə çevrilib.*

**Sücayət Mehti**

# Ekspert təklif verdi

## Bağçalarla bağlı xaosu aradan qaldırmaq üçün Türkiyə modelinə keçmək lazımdır

**Sosial Tədqiqatlar Mərkəzinin rəhbəri Zahid Oruc təhsillə bağlı sos verib.**

O bildirib ki, ölkəmizdə 1825 uşaq bağçası var. Bu o deməkdir ki, ən yaxşı halda hər 4 uşaqdan yalnız biri bağça ilə təmin olunur. Bəs görəsən, icra orqanlarından alınaraq Elm və Təhsil Nazirliyinin tabeliyinə verilən bu müəssisələr nə zaman tam təminatlı çalışacaq? Bu problemi aradan qaldırmaq üçün hansı addımlar atılmalıdır?

**Məsələyə münasibət bildirən təhsil eksperti Kamran Əsədov ”Şərq”ə bildirib ki, problemi həll etmək üçün Türkiyə modelinə keçilməli və özəl sektora şərait yaradılmalıdır:** ”Azərbaycan yenidən müstəqillik əldə etdikdən sonra, Qarabağ konflikti nəticəsində, məcburi köçkünlər dövlət uşaq bağçalarının binalarında yerləşdirilmişdi. Bağçaların maddi təminatının yüksəldilməsi məqsədilə 2001-ci ildə icra hakimiyyətlərinin tərkibinə verildi. Lakin 2001-2021-ci illərə baxsaq görərik ki, bu zaman kəsiyində həm uşaq bağçalarının sayı azaldı, həm də ciddi problemlər ortaya çıxdı.

Bu gün 1825 uşaq bağçası var ki, onların da 350-i Bakıda yerləşir. Gədəbəy, Zaqatala və s. kimi bölgələrdəki bağçaların sayı azdır. Şagirdlərin bağçalara getməsi isə onların gələcəkdəki inkişafı üçün çox vacibdir. Yeni bağçaya gedənlə, getməyən uşaq arasında ciddi bilik və bacarıq fərqi olur. Hazırda dövlət tərəfindən yeni bağçaların inşasına isə böyük vəsait lazımdır”.



**"Bu modeli tətbiq edərək çoxmərtəbəli binaların 1-ci mərtəbəsini uşaq bağçasına çevirə bilərik"**

Ekspert qeyd edib ki, mövcud problemi həll etmək üçün özəl sektora şərait yaratmaq lazımdır: ”Məsələn, İstanbulda 7 min təhsil müəssisəsindən 3500-ü özəldir. Amma Azərbaycanda 4432 təhsil mərkəzinin yalnız 30-u özəldir. Uşaq bağçalarından isə 90-nı lizenziya alıb və özəl fəaliyyət göstərir.

Ümumiyyətlə isə özəl sektorun şərtləri yumşaldılmalı və xüsusi yerlər ayrılmalıdır. Çünki onlar dövlətin yükünü götürürlər. Biz Türkiyə modelini tətbiq edərək çoxmərtəbəli binaların 1-ci mərtəbəsini uşaq bağçasına çevirə bilərik.

Bölgələrdə isə torpaq sahəsi ayırıb, özəl sektora şərait yaradaraq, bu problemi həll etmək mümkündür. Eyni zamanda dövlət kommunal xərclərdə və vergidə, özəl bağçalara güzəşt edərək qiyməti də aşağı həddə sala bilər. Bununla da onlar hər kəs üçün əlçatan olar”.

**Nihat Müzəffər**

# Oğlan uşaqları qızlardan daha çox kəkələyir



## Həkim-nevroloq: “Güclü qorxu, ifrat sevinc hissi kəkələməni artıran başlıca səbəblərdir”

**Ağır psixoloji travmalar, o cümlədən güclü qorxu, ifrat sevinc hissi kəkələməni artıran başlıca səbəblərdir. Son illərdə kəkələmə hallarının xüsusilə uşaqlar arasında artdığını nəzərə alaraq, bu haqda valideynlərə, əsasən də gənc valideynlərə maarifləndirmə məqsədilə qısa məlumat verməyi lazım bildik və mütəxəssisə müraciət etdik.**

”Medicina” xəbər verir ki, ATU-nun Nevrologiya kafedrasının assistenti, həkim-nevroloq İsa Alışanov kəkələmənin artikulyasiya aparatının nitq aktının formalaşmasında iştirak edən əzələlərinin funksional və ya orqanik genezli qıcolmaları səbəbindən baş verdiyini dedi.

Bildirdi ki, dünya əhalisinin təxminən 1 faizinin əziyyət çəkdiyi kəkələmə səslərin, hecaların və sözlərin uzadılması, danışıqda tez-tez fasilələrin olması ilə müşahidə edilən nitq qüsurudur. Onun sözlərinə görə, ən çox 2-6 yaş arasında inkişaf edən kəkələməyə qızlarla müqayisədə daha çox oğlanlarda rast gəlinir.

Həkim-nevroloq kəkələməyə gətirib çıxaran əsas amillərdən danışaraq qeyd etdi ki, ağır psixoloji travmalar, o cümlədən güclü qorxu, ifrat sevinc hissi və s. kəkələməni artıran başlıca səbəblərdir. Eyni zamanda insan psixikasına mənfi təsir edən uzunmüddətli patoloji vəziyyətlər, uşağın baş-beyin funksiyalarının müxtəlif səbəbli doğuş zədələri, hipoksiya, asfiksiya, beyin silkələnmələri və digər pozulma halları da adıçəkilən nitq qüsurunu kəskinləşdirə bilər.

Kəkələyən uşaqlar bağçada, məktəbdə, eləcə də digər kollektivlərdə həmyaşıdları ilə ünsiyyətdə olarkən müəyyən problemlərlə qarşılaşırlar. Bu da onların həyat tərzinə, xüsusən də davranışına, xasiyyətinə və rəftarına mənfi təsir göstərir: ”Kəkələyən uşaqlar ünsiyyətdən çəkinir, özünə qapanmaya, tək qalmağa, hətta təcavüzkarlığa meylli olurlar. Ən başlıcası isə danışmağa həvəs göstərmirlər, ünsiyyətdən qaçırlar. Onlarda loqofobiya inkişaf edir. Ona görə də valideynlər övladlarının kəkələdiyini hiss etdikləri andan pediatra, ilk növbədə uşaq nevroloquna müraciət etsələr, problem böyüməz və nəticədə kəkələmə aradan qalxar”.

Müalicənin daha effektli olması üçün uşaq nevroloqu, psixoloq və loqopedin əlaqəli işləməsinin vacibliyinə toxunan həkim, diaqnoz vaxtında qoyulduqda və müalicə düzgün aparıldıqda, tam sağalmaya nail olmağın mümkünlüyünü diqqətə çatdırdı.

Xatırladaq ki, kəkələmədən əziyyət çəkən ingilis siyasi və dövlət xadimi, natiq və yazıçı Uinston Çerçil, kino aktrisası, müğənni və model Merilin Monro, məşhur fizik, riyaziyyatçı, astronom və kimyaçı-alim İsaak Nyuton və nitq qüsurlu digər tarixi şəxsiyyətlər özlərini ifadə etməyi bacarıblar.



## “Onun kimi ikinci bir həyat yoldaşı ola bilməz”

Habil Əliyevin xanımı: ”Deyirdi ki, məni sevmirsən, qısqanmırsan”

**Mərhum Xalq artisti Habil Əliyevin 87 yaşlı həyat yoldaşı Şərqiyyə xanım ”Baku TV”yə müsahibə verib.**

O, kamança ifaçısının qısqanclığından danışıb:

”Onun kimi ikinci bir həyat yoldaşı ola bilməz. Qadın cinsinə çox hörmət edən biri idi. Üç qız övladı var. Qısqanc adam idi. Özüm dövlət universitetini bitirdim, cəmi 4 ay işlədim. Birinci kursu bitirəndən sonra evləndik. Hər gün gəlib məni dərsdən götürürdü, amma narahat olmurdum. Mən isə qısqanmırdım. Deyirdi, məni sevmirsən, qısqanmırsan. Qızlarını həkimlik oxutdu. Özü də uşaq həkimi oldular ki, kişi ilə kontaktda olmasınlar. Rəvanın da həkim olmasını istəyirdi, amma razılaşmadı. Dedi ki, ata, qan görə bilmərəm. Biz yeni evlənəndə çox kasıb idi. Qohumlar kömək etdi, 5 minə ev aldıq. Əmim ağıllı insan idi, atam yoxuydu. Düşünürəm ki, əmim necə məni ona verdi? Səhhətində problem var idi, deyirdim, hara gedirsən? Deyirdi, sizləri, həyatı qoyub hara gedim, girim torpağın altına?”.

**Elan**

İsmayılova Tamella Ehtibar qızının adına verilmiş məcburi köçkün vəsiqəsi itdiyi üçün etibarsız sayılır.



## Uzun fasilədən sonra...

Nazpəri Dostəliyeva toy məclislərinə qatılıb

**Xalq artisti Nazpəri Dostəliyeva uzun fasilədən sonra yenidən toy məclislərinə qatılıb.**

Axşam.az xəbər verir ki, oğlu Əlini itirdikdən sonra müğənni heç bir tədbir və el şənliyinə qatılmırdı.

Dostəliyeva bununla bağlı sosial şəbəkə hesabında paylaşımlar edib. O, ”Hər zaman xalqımızın gözəl günlərində görüşək” qısa şərhini yazıb.

*Qeyd edək ki, Nazpərinin oğlu 2021-ci ilin martında ürək çatışmazlığından vəfat edib.*

## Danışıqlar gedir

Şəbnəm qızının toyuna Sibel Canı gətirəcək?



**Müğənni Şəbnəm Tovuzlu qızı Günelin toyuna hazırlaşır.**

Axşam.az-a açıqlama verən sənətçi toyun Yeni ilə qədər olacağını deyib. Bir müddət əvvəl tək arzusunun qızının toyuna türkiyəli müğənni Sibel Canı gətirmək olduğunu deyən Şəbnəm bunla bağlı sualı cavablandırıb.

”Allahın köməkliyi ilə, edəcəm. Hazırda danışıqlar gedir. Alınsa, Sibel Can toya gələcək. Ya Röya, ya Sibel Can... Arzulayıram” deyə, Şəbnəm bildirib.

*Qeyd edək ki, Şəbnəm ”Uşaqlığımından onu sevirəm. Tək arzum onu qızımın toyuna gətirməkdir. 100 min istəsə də verəcəm və gətirəcəm” deyə, açıqlama vermişdi.*

# “Nə üçün “şaftalı”, “pambıq” sözlərinin qisasını alırıq?!”

## Elmin Nuri: “Hər birimizdə çalışdığımız zaman səhvə yol vermə halları baş verib”



**”Hazırkı - jurnalist və araşdırmaçı fəaliyyətim dönəmində heç zaman nə Elm və Təhsil Nazirliyinin (ETN) tərəfindən çıxış edən subyekt rolunu oynayır, nə də məqsədli şəkildə onların fəaliyyətinin müsbət istiqamətini vurğulayıram”.**

*Bu sözləri ”Şərq”ə təhsil eksperti Elmin Nuri deyib. Onun sözlərinə görə, istənilən qurumun gördüyü mənfi ilə yanaşı, müsbət işlər də var:* ”Amma ETN-in hazırladığı təlimatı birmənalı şəkildə dəstəkləyirəm. Yeni qaydalar təhsil və təlim-tərbiyə prosesində vacib nüansdır. Hətta gecikmiş meyarlar idi. Bu qərarlar çoxdan hazırlanmalı və tətbiq edilməli idi. Lakin biz - sosial şəbəkə istifadəçiləri olaraq, çox təəssüf ki, müəyyən manipulyatorların ”səyi” ilə məsələnin tamamilə başqa tərəfinə diqqət çəkdik. Bu da nazirliyin slaydında bir neçə səhvin əksini tapmasıdır.

Təbii ki, başqa dövlət qurumları, hər hansı təşkilat belə diqqətsizlik etsə idi, bir o qədər qınağa tuş gəlməzdi. Lakin cəmiyyət ETN əməkdaşlarının düzəltdiyi yazılı slayd-materialda bu cür yanlışın olmasını birmənalı qarşılamadı. Burada daha çox qeyri-səmimilik, yaranan intiqam fürsəti görürük. Əlbəttə, könül istərdi ki, nəinki ETN, hətta bu kimi işlər görən bütün rəsmi və qeyri-rəsmi dövlət qurumlarının saytlarında analoji səhvlər əksini tapmasın. Hər birimiz adicə bir status yazanda belə ona yenidən nəzər yetiririk, hərf səhvləri varsa, düzəldirik. Yeni sadə bir paylaşımda belə səhvi qəbul etmədiyimiz halda, ETN-in geniş publikaya təqdim etdiyi rəsmi qərarın əks olunduğu slaydda 6 səhvin olması təbii ki, qəbuledilməzdir. Amma bunun üzərinə düşmək, ”dünyanın sonu” kimi göstərmək, əsas mahiyyəti, proseslərin müzakirəsini, qərarlar toplusunda yer alan məsələləri kənara qoyub, diqqəti onun üzərinə cəmləşdirmək qeyri-ciddilikdir. Yeni qəbul olunan qərar son 5 ildə təhsilimiz adına atılan çox gözəl addımlardan biri idi. Şagirdlərə və daha çətin tərbiyə olunan uşaqlara qarşı tətbiq olunan xüsusi qadağa və cəzalar mexanizmi vacib məsələlərdəndir. Bu, öz sözünü hələ sonra deyəcək. Göstərəcək ki, orta təhsil müəssisələrimizdə nizam-intizam qaydalarına əməl olunması prosesində çox böyük axsaqlıqlar mövcud idi”.

**E.Nurinin sözlərinə görə, hətta ev tapşırığının yazılmaması davranış qaydasının pozuntusu kimi qiymətləndiriləcək:** ”Axı bunun nəyi pisdir?! Nəyə görə bunları müzakirə etmirik?! Nə üçün ”şaftalı”, ”pambıq” sözlərinin qisasını alırıq?! Bu gün, bəlkə də, kvadratın perimetrini hesablaya bilməyən 2 min müəllim var idi. Yəqin həmin kvadratın intiqamını alırlar. Nəzərə almaq lazımdır ki, bu, iş prosesidir. Hər birimizdə çalışdığımız zaman səhvə yol vermə halları baş verib. Ədaləti mövqe ilə qarışdırmamalıyıq. Çox təəssüf ki, sözügedən mövzu əsas məsələni öz kölgəsində qoydu. Yeni qaydaları cəmiyyət olaraq dəstəkləməliyik, xeyrini də gələcəkdə görəcəyik. Yeni təlimat nizam-intizam qaydalarına əməl edilməsində çox ciddi dəyişikliklərə səbəb olacaq”.

*Qeyd edək ki, Elm və Təhsil Nazirliyinin ”İntizam tədbirləri” bölməsində fonetik normanın pozulması halı müzakirə obyektinə çevrilib. Eyni zamanda sosial şəbəkə istifadəçilərinin tənqid hədəfinə tuş gəlib.*

**Sücayət Mehti**

Təsisçi və baş redaktor: Akif Aşırlı
Baş redaktorun ı müavini: Yusif Nəzərli
Redaktor: Ayyət Əhməd

Reportyorlar qrupu:
Məlahət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Kənan Eynuroğlu, Günəş Mərd, Aygün Tahir

Texniki heyət:
Rüfət Dadaşov, İmamcan Əliyev, İlahə İbrahimova, Nailə Cabbarlı, Fazilə Məmmədova

Qəzet “Şərq”in kompyuter mərkəzində yığılır, səhifələnir və “Azərbaycan” nəşriyyatında çap olu-

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb.
Lisenziya: 535
www.sherg.az
e-mail: sherq-1996@mail.ru

Ünvan: Mətbuat prospekti, “Azərbaycan” nəşriyyatı.
Telefon: 447-32-41
538-44-50, internet 538-44-15,
İndeks: AZ1073

Hesab nömrəsi: “Kapitalbank”ın ASC 1 saylı Nəsimi filialı 9900003611
SWIFT BIK AII-BAZ2X h/h
AZ17AIIB38070019441100466111
Kod 200112 M/H
AZ37NABZ01350100000000001944
VÖEN 1300414651 İndeks: 0330 Tirajı: 2550 Sifariş: 3070

# 80 min dollar təklif etdi

## Beyonsun qızının brilyant sırğaları 150 min dollara alıcı tapdı



**Yeni albomu "Renaissance" ilə musiqi hitlərində böyük uğur qazanan məşhur müğənni Beyons və reper Cey Zinin qızı Blu Ayvi qatıldığı xeyriyyə gecəsində sırğaları üçün 80 milyon dollar təklif edib.**

"Şərq" xarici mediaya istinadən xəbər verir ki, ailəsi ilə birlikdə "Wearable Art Gala"ya qatılan Blu Ayvi bu təklifi ilə gündəm olub.

O, həmçinin bu təkliflə auksionçu kimi çalışan nənəsi Tina Knovles-Lavsonu təəccübləndirib.

Ayvinin təklifindən sonra brilyant sırğa 105 min dollara başqa alıcı tapıb.

*Qeyd edək ki, Ayvi daha əvvəl 2018-ci ildə cəmi 6 yaşında olarkən eyni qala tədbirində 19 min dollar təklif etmişdi.*

Turan

# Azərbaycanlı qız ən gözəl sima seçildi



**Azərbaycan əsilli qız Melissa Rauf "Miss England" gözəllik müsabiqəsinin ilk beş qalibi sırasında yer alıb.**

Melissa "Ən gözəl üz" nominasiyasında müsabiqənin qalibi olub.

"Layihənin finalında ilk beş sıraya düşə bildiyim üçün fəxr edirəm. İlk gözəllik müsabiqəmin bu qədər uğurlu keçəcəyini təsəvvür belə edə bilməzdim. Mənə dəstək olan hər kəsə təşəkkürümü bildirirəm" deyə, o, sosial media hesabında yazıb.

*Qeyd edək ki, Melissa yarışmanın 94 illik tarixində kosmetikadan imtina edən ilk iştirakçı olub.*






# "Kasıb dostum yoxdur"

## Rişi Sunak 730 milyon sterlinq sərvətə sahibdir

**İngiltərənin yeni Baş naziri, Hindistan əsilli Rişi Sunak 1980-ci ildə Böyük Britaniyada, Southamptonda anadan olub. Ailəsi 1960-cı illərdə Afrikadan B.Britaniyaya köç edib. Rişi İngiltərənin sayılıb-seçilən tədris ocaqlarında təhsil alıb. "Vinçester" kolleci, ardınca "Oxford" Universiteti, "Stanford" Universitetlərində fəlsəfə, iqtisadiyyat, hüquq təhsili alıb.**

Hindli milyonçu Narayana Murthunun qızı Akşata Murti ilə ailə qurub. 2015-ci ildə Mühafizəkarlar Partiyasından millət vəkili seçilib. B.Britaniya hökumətində bir neçə vəzifə daşıyıb. B.Britaniya hökumətinə bir hindlinin başçılıq etməsi təbii ki, dünyanın marağındadır və gözlər Rişi Sunakın üzərinə cəmlənib. Kimdir, hansı vərdişləri, hansı hobbiləri var "Şərq" "NTV.com.tr"yə istinadən xəbər verir ki, yeni baş nazir özü haqqında xəsislik etmədən danışan insandır. Səmimidir, nəyi sevib, nəyi sevmədiyini də açıq söyləyir. "Prada" firmasının ayaqqabılarını geyinir və fərdi tikilmiş kostyumlara üstünlük verir. Rişi Sunak zahiri görünüşcə səliqəlidir və zəngin insan təsiri bağışlayır. Bunu özü də etiraf edir və deyir ki, kasıb dostları heç vaxt olmayıb. Yəni kasıblarla oturub-durmayıb; Xalq adamı deyil. R.Sunak kral III Çarlzın sərvətinin 2 qatına malikdir, bununla da ölkə tarixindəki hökmdarlar arasında ilk onluqdadır. Və R.Sunak bununla öyünür, zənginliyini gizlətmir. "Nyu Statesmen" adlı siyasi dərgi tərəfindən yayımlanan videoda R.Sunak zəngin qəsəbələrə yardım etmək üçün yoxsul qəsəbələrə ayrılmış sosial yardımları ora yönləndirib. Və bunu "siyasəti dəyişdirirəm" şəklində izah edib. R.Sunak "Coca-Cola" aludəçisi olduğunu da etiraf edib. Məktəblilərə zərərli hesab edilən içki növünü təriflədiyi üçün ictimaiyyətdən təpki alıb. R.Sunakın bəzi saxtakar hərəkətlərə yol verdiyi də üzə çıxıb. Ötən ilin mayında İngiltərədə benzinin qiyməti yüksəldiyi zamanlarda maliyyə naziri olan R.Sunak yanacaqdoldurma məntəqəsində qırmızı "Kia" avtomobilinə benzin vurduraraq yola çıxıb. Sonrasa məlum olub ki, bu, maliyyə nazirinin şəxsi avtomobili deyil, yanacaqdoldurma məntəqəsində çalışan birinin avtomobilidir. Nə işdisə, həmin dönəmdə R.Sunak zəngin görünmək istəməyib və belə bir bicliyə əl atıb. Məsələ üzə çıxdıqda isə R.Sunak "bu, başıma gələn ən utancverici hadisəydi. Ömrümdə ilk dəfəydi ki, mənə aid olmayan maşına benzin vurdururdum və dahası, benzinin pulunu ödəməkdə çətinlik çəkirdim", deyib. Bunun səbəbi isə R.Sunakın təmassız ödəniş edə bilməməsi olub. Anlaşılan, B.Britaniyanın yeni baş naziri post-terminal vasitəsilə ödəniş edə bilməyib. Təmassız ödənişi sonra öyrənib. 2001-ci ildə "BBC"nin "Orta siniflər: yüksəliş və yayılmalar" adlı filminə çəkilən R.Sunak kübar ailələrin övladlarıyla dostluq etdiyini və dostları arasında kasıbların olmadığını söyləmişdi. Hazırda R.Sunak və həyat yoldaşı Akşata Murti təqribən 730 milyon sterlinq sərvətə sahibdirlər. Kral III Çarlz və həyat yoldaşı Kamillanın isə cəmi 300 milyon sterlinq sərvəti var. Bu o deməkdir ki, baş nazir kraldan daha zəngindir.




Məlahət Rzayeva

# 1 371 manat

## Hadisənin müzakirə yaradan tortunun qiyməti təəccübləndirir



**Pop ulduz Hadisənin 37-ci yaş günü tortunun qiyməti üzə çıxıb.**

**Olay xəbər verir ki, sənətçinin müzakirə yaradan tortu 15 min türk lirəsidir (1 371 manat).**

**Bu fakt Seda Sayanın bənzər tortun yer aldığı məclisə qatılması ilə məlum olub.**

# Əvvəl çiçək, sonra atəş...

## Evlilik təklifini rədd edən tibb bacısını güllələdi



**Türkiyənin Karaman şəhərində sağlamlıq mərkəzinə silahlı hücum təşkil edən şübhəlinin güllələdiyi tibb bacısına evlilik təklifi etdiyi məlum olub.**

**"Şərq" türk mediasına istinadən xəbər verir ki, hadisə iki gün öncə saat 11.30 radələrində Həmidiyyə rayonunda yerləşən 1 saylı Ailə Sağlamlığı Mərkəzində baş verib. 28 yaşlı Hüseyn B. ailə sağlamlıq mərkəzinə gedərək tapança ilə 26 yaşlı tibb bacısı Əminə A.-ya atəş açıb.**

**Daha sonra həmin tapança ilə özünü sinəsindən vuraraq intihara cəhd edib. Əvvəlcə sağlamlıq mərkəzindəki həkimlər Əminə A. və Hüseyn B.-yə müdaxilə edib. Daha sonra hər iki yaralı təcili yardımla Karaman Təhsil və Araşdırma xəstəxanasına aparılıb. Əməliyyatlardan sonra Emine A. və Hüseyn B.-nin müalicəsinin və həyati təhlükəsinin davam etdiyi bildirilib. Hüseyn B. və Əminə A.-nın bibisi uşağı olduğu bildirilib. Hadisədən əvvəl Hüseyn B.-nin əlində çiçəklə Emine A.-nın iş yerinə gələrək evlilik təklifi etdiyi və rədd cavabı aldıqdan sonra oradan uzaqlaşdığı məlum olub. Daha sonra mərkəzə silahla gələn Hüseyn B.-nin Əminə A.-ya atəş açaraq, daha sonra intihara cəhd etdiyi müəyyən edilib. Hüseyn B.-nin Əminə A.-ya verdiyi gülün üzərindəki qeyddə "Sevgin nəfəs kimidir, çəkməsəm ölərəm..." yazdığı diqqət çəkib.**

Turan





# 50 il idi yuyunmurdu

## Dünyanın ən çirkin adamı 94 yaşında vəfat edib

**İranda "xəstələnmək qorxusundan" 50 ildən çox yuyunmayan Amou Hacı (Qoca əmi) adlı şəxs 94 yaşında vəfat edib.**

İranın rəsmi agentliyi İRNA-nın xəbərinə görə, Fars əyalətinin Farsbənd rayonunun Dəcgah kəndində "Hacı dayı" ləqəbli qoca xəstələnmək qorxusundan 50 ildən artıqdır ki, yuyunmurdu.

Bir neçə il əvvəl kənd gəncləri qocanı hamama aparmaq istəsələr də, buna nail ola bilməyiblər. Deyilənə görə, qoca başqa vaxt yuyulmaq üçün yaxınlıqdakı dərəyə aparıldığını anlayanda maşından düşüb qaçıb.

Qoca illər sonra kənd sakinlərinin səyi ilə vanna qəbul edib. Lakin bir neçə ay sonra 94 yaşlı kişi xəstələnərək dünyasını dəyişib.

Çətin təbii şəraitə müqavimət göstərərək kənd camaatının hörmətini qazanan qocanın sağlığında ailə qurmadığı da məlumdur.

Kənd camaatının tikdiyi qapısı olmayan talvarda qalan qocanın zibildən yediyi yeməklə dolansa da, illərdir heç bir xəstəlikdən əziyyət çəkmədiyi iddia edilib.Ağır həyat tərzini seçməsinin səbəbi məlum olmayan qocanın ölməzdən əvvəl psixi cəhətdən sağlam olduğu, ölkədə və dünyada baş verən aktual problemlərdən insanlardan eşitdiyi qədər xəbərdar olduğu da bildirilir.

Turan

# Xərçəngi 3 dəfə artıran çay açıqlandı

**Alimlər orqanizmdə xərçəngi aktivləşdirən, amma çoxunun faydalı bildiyi çayı açıqlayıb.**

"Medicina" xəbər verir ki, alimlər Paraqvay Mate çayının onkoloji riski artırdığını sübut edib.

Xüsusi kalabas qabında metal borucuq ilə təqdim olunan bu çay 6 növ xərçəng xəstəliyini tətikləyir.



Aparılan elmi tədqiqat sübut edib ki, antioksidant tərkibinə görə faydalı hesab edilən çay müntəzəm içildikdə, hər 5 insandan birində xərçəng yaradıb.

"Əgər uzun müddət və çox miqdarda bu çayı içsəniz, prostat, sidik kisəsi, ağciyər, ağız, qida borusu və bağırsaq xərçəngi yarana bilər- deyə ABŞ-ın onkoloji mərkəzinin alimləri bildirir.

Belə ki, bu çayda ətirləndirici maddələr var ki, onlar qızarmış ət və tütün tüstüsündə olan kanserogen maddə ilə eynidir.